

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Bakıda "Heydər Əliyev 101: Türkiyə yüz ili" adlı tədbir keçirilib




3

№ 080(7005)

8 may 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan - Slovakiya münasibətləri üçün yeni səhifə



2

**İlham Əliyev: "Bu gün Slovakiya-Azərbaycan əlaqələrində yeni səhifə açılır və ümid edirəm, bizim müştərək yolumuz çox uğurlu olacaq"**

# İrəvana səlib yürüşü



13

## 1941-1945: yaşanan və yaşadılan tarix




5

## Reallıqlar fonunda PARADOKSALLIQ




6

## ŞUŞA: xarıbülbülün monoloqu



10

## Azad və abad Qarabağ



14

## BOKT-lardan kredit götürənlər, DİQQƏTLİ OLUN!




16

# Azərbaycan - Slovakiya münasibətləri üçün yeni səhifə

## İlham Əliyev: "Bu gün Slovakiya-Azərbaycan əlaqələrində yeni səhifə açılır və ümid edirəm, bizim müştərək yolumuz çox uğurlu olacaq"

**Müstəqil siyasət yürüdən Azərbaycanın regional, eləcə də beynəlxalq miqyasda əməkdaşlıq əlaqələri siyasi iradəsinin göstəricisidir. Azərbaycanın bir çox dünya dövlətləri ilə qurduğu münasibətlər qarşılıqlı etimada əsaslanır. Müasir dünyamızda bir çox dövlətlərlə yanaşı, Azərbaycan Slovakiya ilə də münasibətlərin daha da dərinləşməsi, yeni strateji səviyyəyə çatdırılması üçün böyük əhəmiyyət kəsb edəcək qərarların, sənədlərin qəbul edilməsinə diqqət ayırır. Ötən illər ərzində Azərbaycan-Slovakiya əlaqələri çox uğurla inkişaf edib. Əldə olunan nəticələr onu deməyə əsas verir ki, iki ölkə arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir, Azərbaycan-Slovakiya münasibətləri əsasən, hər iki respublikanın müstəqillik əldə etməsindən sonra yaranmağa başlayıb.**

Mayın 7-də Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun ölkəmizə rəsmi səfəri əlaqələrin dinamik inkişafına əsaslanır. "Slovakiya və Azərbaycan bu gün suverenlik və ləyaqət əsasında qurulmuş siyasətlə idarə olunur". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Slovakiyanın Baş naziri Robert Fitso ilə mətbuata bəyanatında deyib. Robert Fitsonu Slovakiyanın Baş naziri vəzifəsinə yenidən seçilməsi münasibətilə bir daha təbrik edən dövlətimizin başçısı bildirib ki, onun Baş nazir vəzifəsində yenidən fəaliyyətə başlamasından dərhal sonra konkret addımlar atılmışdır. "Yüksəkvəzifəli şəxslər Slovakiyadan Azərbaycana və Azərbaycandan Slovakiyaya səfərlər etmişlər və bu gün biz hörmətli qonağımızı qəbul edirik", - deyə dövlətimizin başçısı vurğulayıb.







### "BU MƏSƏLƏLƏRİN HƏLLİ BİZİM MÜNASİBƏTLƏRİMİZİ ÇOX YÜKSƏK SƏVİYYƏYƏ QALDIRACAQDIR"

Bu onun ölkəmizə birinci səfəridir. Səfər çərçivəsində Slovakiya-Azərbaycan əlaqələrinin perspektivləri haqqında fikir mübadiləsi aparılıb. "Sizin səfəriniz əlaqələrimizin yeni səhifəsini açacaq. Çünki bu gün müzakirə edilən məsələlərin əhatə dairəsi o qədər genişdir ki, bu məsələlərin həlli bizim münasibətlərimizi çox yüksək səviyyəyə qaldıracaqdır". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə geniş tərkibdə keçirilən görüşdə bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Baş naziri Robert Fitso "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə"ni imzalayıblar. "Bu da çox ciddi siyasi sənəddir, faktiki olaraq münasibətlərimizi ən yüksək səviyyəyə qaldıran bir sənəddir" - deyən dövlətimizin başçısı diqqətə çatdırıb ki, sənədin özü və onun məzmunu təbii ki, bizim niyyətimizi göstərir, bir-birimizə olan hörməti, qarşılıqlı dəstəyi göstərir. "Hesab edirəm ki, bu gün Slovakiya-Azərbaycan əlaqələrində yeni səhifə açılır və ümid edirəm, bizim müştərək yolumuz çox uğurlu olacaq". Bu fikri Cənab Prezident mətbuata bəyanatla çıxışında bildirib.



Qeyd edək ki, dövlətlərarası ikitərəfli siyasi münasibətlər 23 noyabr 1993-cü ildə qurulub. 2000-ci ilin fevralında Slovakiyanın xarici işlər naziri Eduard Kukan Azərbaycana səfər edib. 1 fevral 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Eduard Kukan başda olmaqla nümayəndə heyətini qəbul edib. Səfər zamanı Birgə Bəyanat, Azərbaycan Respublikası Hökuməti və Slovakiya Respublikası Hökuməti arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Slovakiya Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol imzalanıb.

İkitərəfli münasibətlərin genişlənməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasına səfəri böyük rol oynayıb. 18 mart 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Slovakiya Respublikasına işgüzar səfər edib. Səfər çərçivəsində Prezident İlham Əliyev bir sıra beynəlxalq təşkilatların və xarici ölkələrin rəhbər şəxsləri ilə görüşlər keçirib. Bu əlaqələr dövlətlərarası münasibətlərin inkişafında mühüm rol oynayıb.

### "MÜDAFİƏ SƏNAYESİ SAHƏSİNDƏ BİRGƏ İSTEHSAL SAHƏLƏRİNİN YARADILMASI HAQQINDA DA ARTIQ KONKRET DANIŞIQLARA DA START VERİLMİŞDİR"

Dövlətlərarası "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında hərbi-texniki əməkdaşlıq sahəsində Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb. "Bildiyiniz kimi, bu gün imzalanan sənədlər arasında, müdafiə və müdafiə sənayesi sahələrinə aid sənədlər var. Bu iki istiqamət üzrə geniş fikir mübadiləsi aparılmışdır və müdafiə sənayesi sahəsində birgə istehsal sahələrinin yaradılması haqqında da artıq konkret danışıqlara da start verilmişdir", - deyən Prezident bildirib ki, bu gün energetika sektorundakı əməkdaşlıq çox geniş müzakirə edilmişdir. Azərbaycan hazırda 8 ölkəyə öz təbii qazını ixrac edir və ümidvaram ki, 9-cu ölkə Slovakiya olacaq. Keçən ilin aprel ayında "Həmrəylik Halqası" adlanan sənəd imzalanmışdır və beləliklə, Azərbaycan qazını Slovakiya bazarına da nəql etmək üçün yaxşı imkanlar yaradılmışdır.

### "BİZİM PLANLARIMIZDA 2027-Cİ İLİN SONUNA QƏDƏR TƏKCƏ AVROPA İTTİFAQI MƏKANINA 20 MİLYARD KUBMETR QAZIN NƏQL EDİLMƏSİ MƏSƏLƏSİ DAYANMIŞDIR"

"Azərbaycan təbii qazını Avropa məkanına etibarlı yollarla nəql edir", - deyən Prezident diqqətə çatdırıb. Avropaya təchizatın 2021-ci ildəki 8 milyard kubmetrdən bu il 12 milyard kubmetrə qədər qalxacağını söyləyən dövlətimizin başçısı bildirib ki, bu, Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir. "Bizim planlarımızda 2027-ci ilin sonuna qədər təkcə Avropa İttifaqı məkanına 20 milyard kubmetr qazın nəql edilməsi məsələsi dayanmışdır və mən hesab edirəm ki, biz buna nail olacağıq", - deyə Prezident vurğulayıb. Dövlətlərarası münasibətlər siyasi dialoqa, etibarlı tərəfdaşlıq, müttəfiqlik münasibətinə söykənir və bu, uğurlu əməkdaşlıq üçün müstəsnadır. Əminliklə vurğulayaq ki, bu səfər bütün sahələr üzrə əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılmasına əhəmiyyətli təkan verəcək, gələcək inkişaf üçün böyük perspektivlər açacaqdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Bakıda “Heydər Əliyev 101: Türkiyə yüz ili” adlı tədbir keçirilib

**Mayın 7-də Heydər Əliyev Mərkəzində ”Heydər Əliyev 101: Türkiyə yüz ili” adlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, ”Azərbaycan-Türkiyə: Ortaq Yüzüncü il” Platformasının sədri Elmin Sadıqov tədbirin Ulu Öndər Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin qurulmasının 101 illiyinə həsr edildiyini söyləyib. Türkiyə ilə Azərbaycan arasında münasibətlərdən danışan E.Sadıqov ölkələrimizin bir-birinə sarsılmaz tellərlə bağlı olduqlarını deyib. Bildirib ki, Azərbaycan-Türkiyə əlaqələri müasir dünya liderləri Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə yüksələn xətlə inkişaf edir.**










Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Ulu Öndər Heydər Əliyev istər fərqli siyasi-ideoloji mühitin, o cümlədən sərt qadağaların mövcud olduğu SSRİ dönəmində, istərsə




də Azərbaycanın mürəkkəb geosiyasi şəraitdə çoxsaylı təhdid və çağırışlarla üzləşdiyi müstəqillik dövründə Türk dünyasında siyasi həmrəyliyin - milli birliyin təmin olun-




masına, türk dövlətləri ilə münasibətlərin inkişafına xüsusi diqqət yetirib.

Çoxəsrlik tarixi köklərə, milli-mənəvi dəyərlərə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri müasir tariximizdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü əsasında Araz çayı üzərində inşa olunaraq əzəli Azərbaycan torpağı - qədim türk yurdu Naxçıvanla Türkiyəni birləşdirən ”Ümid” körpüsü ilə yeni məzmun alıb. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə ”bir millət, iki dövlət” olaraq səciyyələndirdiyi Azərbaycan-Türkiyə münasibətlərinin möhkəmləndirilməsi istiqamətində prinsipial siyasət həyata keçirib, nəticə etibarilə iki qardaş ölkənin dostluq və tərəfdaşlıq əlaqələri dünyada nümunəvi xarakter alıb.




YAP sədrinin müavini qeyd edib ki, bu gün yeni reallıqlar fonunda Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Təqdirəlayiq haldır ki, Azərbaycanın ardıcıl təşəbbüsləri ölkələrimiz arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq daha da möhkəmlənməsinə xidmət edir. Xüsusilə də Azərbaycan ilə Türkiyənin sinxron fəaliyyəti Türk Dövlətləri Təşkilatının qarşıdakı müddətdə geniş təsir imkanlarına malik güc mərkəzinə çevrilməsinə əlverişli şərait yaradır.



”Bu gün iftixarla qeyd edirik ki, Azərbaycanın möhtəşəm Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsindən sonra hər iki dövlətin liderlərinin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan-Türkiyə münasibətləri tamamilə yeni bir səviyyəyə qalxıb, 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması ilə müttəfiqlik zirvəsinə yüksəlib”, - deyə Tahir Budaqov diqqətə çatdırıb.



AMEA-nın vitse-prezidenti, akademik Gövhər Baxşəliyeva qeyd edib ki, Azərbaycan-Türkiyə münasibətləri dostluq və qardaşlıq prinsipinə əsaslanır, eyni zamanda, bu əlaqələrin dərin tarixi kökləri var. O, həmçinin deyib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində iki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

G.Baxşəliyeva diqqətə çatdırıb ki, ötən 101 il ərzində Türkiyə Cümhuriyyəti böyük inkişaf yolu keçərək iqtisadi-siyasi inkişafa nail olub. Tarixin sınaqlarından üzüağ çıxan Türkiyə gündən-günə inkişaf edərək bölgədə, Avropa məkanında güc mərkəzi kimi tanınır.

Tədbirdə çıxış edən energetika nazirinin müavini Orxan Zeynalov, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Milli Məclisin deputatları Anar İsgəndərov, Musa Qasımlı Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan dövlətinin inkişafı yolundakı misilsiz xidmətləri barədə geniş məlumat veriblər. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına xüsusi önəm verib. Bu gün Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ölkələrimiz mühüm uğurlara imza atıb. Çıxışçılar iki ölkə arasında münasibətlərin bundan sonra daha səmərəli, faydalı və məqsədyönlü şəkildə, uğurla davam edəcəyinə əminliklərini ifadə ediblər.

# Milli Məclisin plenar iclası keçirilib, 18 məsələ müzakirə olunub





***Mayın 7-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. Milli Məclisin sədri müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin təməlini yaratdığını, bu təməl üzərində qurulan müstəqil dövləti qoruyub saxladığını və davamlı inkişaf yoluna çıxardığını qeyd edib. Bildirib ki, Ümummilli Liderin başladığı möhtəşəm işlər Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.***

Bu il mayın 10-da Ulu Öndərin adı ilə bağlı olan Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 20 ilinin tamam olduğunu vurğulayan parlamentin sədri Fondun həyata keçirdiyi işlərdən, əldə etdiyi nailiyyətlərdən danışıb. Diqqətə çatdırılıb ki, Heydər Əliyev həyatının mənasını xalqa xidmət etməkdə, xalq yolunda hər bir çətinliyə hazır olmaqda görürdü. Onun adını daşıyan Fond da fəaliyyətində bu ali idealları rəhbər tutur.

Bu gün milyonların sevgisini qazanmış Heydər Əliyev Fondunun nailiyyətlərinin təməlində Fondun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın müstəsna təşkilatçılıq qabiliyyəti və rəhbərlik məharəti, yüksək səriştəsi və peşəkarlığı, böyük zəhməti və fədakarlığı dayanır. Onun hər bir məsələyə yaradıcı münasibəti, insanları vahid məqsəd naminə səfərbər etmək bacarığı, humanizmi və səmimiyyəti Fondun hamıya yaxşı tanış olan simasını müəyyənləşdirir.

Fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev Fondu həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda sosial rifahın, mədəni inkişafın dəstəklənməsinə, humanizm, mərhəmət və birlik ideallarının reallaşmasına yönələn çoxsaylı təşəbbüslərin ön sırasında olub. Fondun fəaliyyətinin ən mühüm istiqamətləri elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə, idmanın inkişafına, sosial müdafiənin gücləndirilməsinə, ekoloji mühitin yaxşılaşdırılmasına, informasiya-kommunikasiya texnologiyalarının inkişafına dair proqramların və layihələrin gerçəkləşdirilməsi ilə bağlıdır.

Milli-mənəvi dəyərlərə, humanizm prinsiplərinə sadiq olan gənc nəslin formalaşdırılması, gender bərabərliyinin təmin edilməsi, sivilizasiyalararası dialoqa rəvac verilməsi, Qarabağda işğal dövründə talan edilmiş abidələrimizin bərpası, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması da Fondun fəaliyyətində önəmli yer tutur.

S.Qafarova qeyd edib ki, Azərbaycan barəsində doğru-düzgün məlumatların yayılması və dövlətimizin milli maraqlarının qorunması istiqamətində ən uğurlu layihələrdən biri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə aparılan ”Xocalıya ədalət!” beynəlxalq təbliğat-təşviqat kampaniyasıdır. Dünyanın bir çox ölkələrini əhatə edən bu kampaniya Xocalı həqiqətlərinin daha geniş aləmdə yayılmasına, cinayətkarların ifşasına yönələn tədbirlərin vahid konsepsiyası əsasında sistemli şəkildə həyata keçirilib.

Sonra iclasda deputat Soltan Məmmədov Heydər Əliyev Fondunun 20 illik fəaliyyətinə həsr olunmuş təqdimatla çıxış edib. Onun çıxışı zamanı Fondun gördüyü işlərdən bəhs olunan fotogörüntülər nümayiş etdirilib.

S.Məmmədov diqqətə çatdırıb ki, Fondun çoxşaxəli fəaliyyətini ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə dərin ehtiramın ifadəsi kimi bir neçə mühüm aspektdən qiymətləndirmək mümkündür.

Bildirilib ki, sosial-humanitar sahədə Fondun gördüyü işlər təhsil, səhiyyə, ekologiya, idman və ehtiyacı olan insanlara qayğı kimi istiqamətləri əhatə edir. Pandemiya dövründə Fondun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, müxtəlif ölkələrdən gətirilən tibbi ləvazimatlar müvafiq tibb müəssisələrinə təqdim olunub. Fond təhsildə fərqlənən, valideyn himayəsindən məhrum uşaqları, şəhid ailələrini, müharibə veteranlarını və müharibə əlillərini hər zaman diqqət mərkəzində saxlayır. Həmçinin ekoloji tarazlığın qorunması, nəsli kəsilməkdə olan heyvan və bitki növlərinin mühafizəsi, əhali arasında ekoloji təbliğatın gücləndirilməsinə də xüsusi diqqət yetirir.

Təqdimatda Heydər Əliyev Fondunun mədəni irsimizin qorunması, tanıdılması və multikultural dəyərlərin təbliği istiqamətində təqdirəlayiq fəaliyyət göstərdiyi vurğulanıb. Bildirilib ki, Fond Almaniyada, Bolqarıstanda, Vatikanda, Romada bir çox muzey və digər tarixi abidələrin bərpasına və təmirinə də öz töhfəsini verib. Eyni zamanda, Bakıda və regionlarda yerləşən bir sıra məscidlərdə əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Soltan Məmmədov Heydər Əliyev Fondunun fəaliyyətinin digər bir mühüm aspektinin həyata keçirilən layihələrin tarixi-ideoloji və siyasi məzmunu ilə bağlı olduğunu vurğulayıb. Vurğulanıb ki, Fond işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq işlərində də fəal iştirak edir. Bununla yanaşı, Heydər Əliyev Fondu ICESCO, UNESCO, BMT-nin İnkişaf Proqramı, ÜST, UNICEF və digər beynəlxalq təşkilatlarla birgə əməkdaşlıq çərçivəsində mədəniyyət, səhiyyə, uşaqların müdafiəsi ilə bağlı layihələr reallaşdırıb.

Sonra iclasın gündəliyi qəbul olunub və cari məsələlərlə bağlı müzakirələr aparılıb.

Müzakirələrdə çıxış edənlər Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət və siyasi xadim, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin doğum günü, Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətinin 20-ci ildönümü ilə bağlı fikirlərini bölüşüb, Ulu Öndərin dövlətimiz və xalqımız qarşısındakı tarixi xidmətlərini vurğulayıblar.

Daha sonra gündəliyə daxil edilən 18 məsələnin müzakirəsi başlayıb. Üçüncü oxunuşda olan ”Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında”, ”Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında”, ”Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”, ”Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” və ”Mədəniyyət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, ”Təhsil haqqında”, ”Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, ”Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, ”Veteranlar haqqında”, ”Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”, ”Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, ”Peşə təhsili haqqında” və ”Əlilliyi olan şəxslərin hüquqları haqqında” qanunlarda, həmçinin ”Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirə olunaraq qəbul edilib.

İclasda, həmçinin ”Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi, eyni zamanda, ikinci oxunuşda olan ”Tütün və tütün məmulatı haqqında”, ”Qida təhlükəsizliyi haqqında” qanunlarda, Vergi Məcəlləsində, Gömrük Məcəlləsində, ”Dövlət rüsumu haqqında” və ”Lisenziyalar və icazələr haqqında” qanunlarda, ”Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”də, ”Dövlət qulluğu haqqında” Qanunda, ”Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə”də, ”Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları”nda, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində və ”Dövlət rüsumu haqqında”, ”Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” qanunlarda, Əmək Məcəlləsində, Mülki Məcəllədə və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri təqdim olunub. Aparılan müzakirələrdən sonra qanun layihələri səsə qoyularaq qəbul edilib.

Gündəliyin sonuncu - 18-ci məsələsi isə İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanunun layihəsi olub. Layihədə bildirilir ki, ”Tütün və tütün məmulatı haqqında” Qanunda nəzərdə tutulmuş qaydada qeydiyyata alınmadan tütün məmulatının istehsalı fəaliyyəti ilə məşğul olmağa görə vəzifəli şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on iki min manatadək məbləğdə cərimə edilir. Sənədlər bağlı fikirlər dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul olunub.

# 1941-1945:

## yaşanan və yaşadılan tarix




***Ümummilli Lider Heydər Əliyev: İkinci dünya müharibəsinin bir tərəfdən dəhşətli dağıntılar, insanların həlak olması, digər tərəfdən dünyanın yenidən dəyişməsi baxımından bəşər tarixində öz yeri var. Bu müharibədə çox xalqlar iştirak edib. Azərbaycan xalqı da o vaxt mənsub olduğu ölkəni, Vətəni müdafiə etmək, dünya mədəniyyətini mürtəce qüvvələrdən xilas etmək üçün bu müharibədə iştirak etmişdir.***

1941-ci ildə Azərbaycan sovet ittifaqının əsarətində olan 15 müttəfiq ölkədən biri idi. 1918-ci ildə qanımız bahasına əldə etdiyimiz müstəqilliyimiz sayəsində yaranan Xalq Cümhuriyyəti 23 ay sonra devrildən sonra Azərbaycanda sovet hakimiyyəti qurulmuş, biz bu hakimiyyətin qanunları çərçivəsində yaşamağa başlamışdıq. Bu, 70 il davam etdi.

1941-ci ildə başlanan İkinci Dünya Müharibəsində bu müttəfiqlərin hər biri kimi, Azərbaycan xalqı da öz Vətənini müdafiə etmək üçün mübarizəyə qalxmışdı. Çünki faşist Almaniyası Bakıya qədər irəliləməyi planlaşdırırdı. Sual oluna bilər ki, nə üçün? Ona görə ki, Almaniya digər müttəfiqlərdən fərqli olaraq Azərbaycanın sərvəti barədə məlumata malik idi. Və bilirdi ki, Rusiya bu müharibəni Bakı nefti hesabına udacaq. Bu səbəbdən də Bakıya qədər irəliləyib buna imkan verməməyə can atırdı. Belə olan vəziyyətdə isə təbii ki, Azərbaycanın mərd övladları öz Vətənlərinin müdafiəsinə qalxacaqdı. Yəni məntiqlə düşünəndə biz sovet hakimiyyətinin tərkibində idiksə, bunu etməyə də bilməzdik. Çünki dolayısı ilə bunun ağır nəticələrini yenə də biz yaşamalı olacaqdıq. Bu səbəbdən də azərbaycanlılar İkinci Dünya Müharibəsində böyük fədakarlıqlar göstərdilər. Bakı nefti isə Rusiyanın qələbə qazanmasında əsas amil oldu. Bütün bunlar yaşanan tarixdir. Yaşandığı üçün də yaşadılmalıdır.



### Fədakarlıq nümunəsi

1941-1945-ci illər müharibəsində Azərbaycanın mərd oğul və qızları xalqımızın ən ali keyfiyyətini-fədakarlığını, vətənpərvərliyini, sarsılmaz mərdliyini nümayiş etdirmişlər. Dəhşətli müharibənin başlandığı ilk gündən səfərbərlik elan olunmuş, on minlərlə Azərbaycan oğul və qızı döyüş cəbhəsinə könüllü göndərilmək üçün ərizə vermişdir. Arxa cəbhədə isə yaşlı kişilər və respublikanın bütün iş qabiliyyətli qadınları çalışır, xalq təsərrüfatının bütün sahələrində döyüşə gedənləri əvəz edirdilər.

1941-1945-ci illərdə 700 minə yaxın azərbaycanlı, başqa sözlə, respublika əhalisinin hər 5 nəfərindən biri cəbhəyə yollanmış, onların isə 450 min nəfəri və ya 65 faizi orden və medallarla təltif olunmuş, 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Müharibədə iştirak etmiş soydaşlarımızın təxminən yarısı həlak olmuş, azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 223-cü və 77-ci diviziyalar şərəfli döyüş yolu keçmişdir.

223-cü Diviziya Macarıstan və Yuqoslaviyanın faşistlərdən təmizlənməsində qəhrəmanlıq göstərmiş, 416-cı Diviziyanın əsgərləri isə Berlində qələbə bayrağını ilk qaldıranların sırasında olmuşlar.

Ordunun ehtiyacını ödəmək üçün xalqımız arxa cəbhədə də misilsiz əmək hünəri göstərmiş, gecə-gündüz bilmədən çalışmışdır. Qadınlar qızıl zinət əşyalarını təhvil verərək cəbhəyə köməklik göstərmişlər. Onlar həmçinin qiymətli ev əşyalarını da cəbhəyə köməklik üçün əsirgəməmişlər. Bütün bunlar isə xalqımızın qədim adət-ənənələrindən, mentalitetindən irəli gəlirdi. Axı bizim tarixin bütün dönəmlərində kollektivçilik, həmrəylik, paylaşmaq, yardımlaşmaq kimi dəyərli xüsusiyyətlərimiz olub. Qonşularımız da, qonaq gələnlərimiz də əsrlər öncə bu keyfiyyətlərimizin şahidi olmuşlar. Elə buna görə də xalqımız başqa cür yanaşa bilmirdi bu müharibəyə. Kimin əlindən nə gəlirdisə, köməkliyini göstərirdi.

### Həm canımızla, həm sərvətimizlə...

Bakıda hasil edilən neft müharibədə qələbənin qazanılmasına böyük töhfə vermişdir. O illərdə Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzininin və yüksəkkeyfiyyətli sürtgü yağlarının 85-90 faizi Azərbaycanın payına düşürdü. Faşizm üzərində qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin tam əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Bakı nefti olmasaydı, bu müharibədə hərbi əməliyyatları uğurla başa çatdırmaq mümkün olmazdı. Ona görə də 1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaəti, habelə arxa cəbhədəki fədakarlığı hər zaman fəxrlə xatırlanır.

Faşizm üzərində qələbədən 79 il ötür. Faşizmə qarşı mübarizədə ön cəbhələrdə fəallıq göstərən, sağlamlığını itirən, doğma yurda sinəsi orden və medallarla qayıdan həmyerlilərimiz bizim üçün qürur və iftixar mənbəyidir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".

### Ulu Öndər veteranlara həmişə qayğı bəsləmişdir

Ulu Öndər Vətən yolunda xidməti olan insanlara heç vaxt qayğısını əsirgəməmişdir. Ötən əsrin 70-ci illərində veteranlara göstərilən qayğı Ümummilli Liderimiz siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra unudulmuş, 1941-1945-ci illər müharibəsi iştirakçılarına, Sovet İttifaqı qəhrəmanlarına və arxa cəbhədə çalışan veteranlara qarşı biganə, laqeyd münasibət göstərilmişdir. Hətta ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə hakimiyyətdə olanlar 9 May - Qələbə Gününü qeyd etməmək barədə rəsmi tapşırıq da vermişdilər. Ancaq Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi 1990-1993-cü illərin Naxçıvanında veteranlar qayğı ilə əhatə olunmuş, 9 Mayla bağlı tədbirlər keçirilmişdir. Ümummilli Liderimizin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 may respublikamızda Qələbə Günü kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilmişdir. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində sistemli və ardıcıl tədbirlər görülmüş, imtiyazları və statusları bərpa olunmuşdur.

Müharibə veteranları bu gün də hərtərəfli dövlət qayğısı ilə əhatə edilmişlər. Ulu Öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev 1941-1945-ci illər müharibəsi iştirakçıları, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 may tarixli "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncamı ölkəmizdə ümumilikdə 3 minə yaxın şəxsə şamil olunacaq. Onlardan 30-u İkinci Dünya müharibəsi iştirakçılarıdır. Sərəncama əsasən 1941-1945-ci illər İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2 min manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına min manat məbləğində birdəfəlik maddi yardım ayrılıb.




Birdəfəlik maddi yardımların verilməsi üçün dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 3,0 (üç) milyon manat vəsait ayrılıb. Birdəfəlik maddi yardımlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürülür.

Qeyd edək ki, 20 ildən artıqdır ki, İkinci Dünya müharibəsi iştirakçıları və yuxarıda vurğuladığımız kateqoriyalardan olan insanlar bu cür qayğı ilə əhatə olunurlar. 1941-1945-ci illər İkinci Dünya müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması, müharibə əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında sərəncamlar bu kateqoriyadan olan insanlara göstərilən qayğının bariz nümunəsidir.

### Onların xatirəsi xalqımız üçün əzizdir

Azərbaycan xalqı 1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçmiş oğul və qızlarımızın tarixi şücaətini, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətini heç vaxt unutmayacaq. Çünki bu beşillik zaman kəsiyi bütün acıları, ağrıları ilə yaşanıb. Minlərlə oğul və qızımız 1941-ci ildə müharibəyə yollanıb. Onlar arxada bir ailəni, həyat yoldaşını, nişanlı qızı, sevgilini buraxıb gediblər. Qayıdanlar sağlamlığını itirsə də, yenə də ata-ana, bacı-qardaş, həyat yoldaşı, övlad, sevgili hicranını vüsal edə biliblər. Qayıtmayanların isə arxada qoyduqlarına qovuşmaq hissi, ürəklərindəki min bir istək və arzu Rusiyanın ucsuz-bucaqsız torpaqlarına gömülüb. Nə arzular ürəklərdə dəfn olunub. Nə göz yaşları məktublarda saralıb, nə nisgillər kağız parçalarına tökülüb. Nə gözlər illərlə yollarda qalıb. Neçə-neçə analar hər qapı döyüləndə "bəlkə yoldaşımdır, oğlumdur, gəlib",- deyə qapıya yaxınlaşıb. Və ümidi elə oradaca yenidən qırılıb.

Axı biz müharibələr, acılar, itkilər görmüş bir xalqıq. Şəhidin, qazinin acısını yaşamış bir xalqıq. Belə isə eyni taleni yaşayan insanları unutmaq olarmı? 90-cı illərdə hakimiyyətdə olanlar sərsəmləsələr də, bunun Ulu Öndərimiz tərəfindən qarşısı alındı. Yoxsa bu gün bunun əzabını çəkərdik. Birinci və İkinci Vətən müharibələrində itirdiyimiz balalarımızı, qazilərimizi hər an ananda İkinci Dünya müharibəsinə gedib qayıtmayan minlərlə övladımızın taleyi ilə bağlı tarixin silinməsini özümüzə bağışlaya bilməyəcəkdik.

Bu gün onlara qayğı ilə yanaşılması, anılması üçün Ümummilli Liderimizə borcluyuq. O, böyük bir tarixi sərsəmlərdən xilas etdi, qorudu. Odur ki, Ulu Öndər hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaq. Həm də böyük minnətdarlıq hissi ilə.

İkinci Dünya müharibəsində həlak olanların, yaralananların, zəhməti ilə kömək olanların həyat yolu bugünkü və gələcək nəsil üçün nümunədir. Elə bu nümunə ilə tərbiyə etdiyimiz gəncliyimiz 2020-ci ildə 44 günlük Vətən müharibəsində böyük vətənpərvərlik və fədakarlıq göstərdi. Vətəni qorumaq nümunəsi nümayiş etdirdi.

Hər bir tarixi yaşandığı üçün qorumaq gələcək nəsillərin borcudur. Bu gün həmin tarixi günləri anmaqla, xatırlamaqla, tədbirlər keçirməklə vətəndaş olaraq vəzifəmizi yerinə yetiririk. Həmişə də belə davam edəcəyik. Çünki onların hər birinin xatirəsi xalqımız üçün əzizdir.

***Mətanət Məmmədova***

# Reallıqlar fonunda PARADOKSALLIQ

***Azərbaycanın haqlı mövqeyini, həqiqətləri, reallıqları görməməzliyə vurmağa çalışanlar 44 günlük müharibə dönəmində də, antiterror tədbirləri zamanı da rəsmi Bakının qanuni şəkildə hərəkət etdiyinin, beynəlxalq hüququn norma və prinsplərinə zidd heç nəyə yol vermədiyinin şahidi oldular. Şahidi oldular ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etmək, ərazilərini terrorçulardan təmizləmək, təhlükəsizliyi, stabilliyi təmin etmək uğrunda haqlı mübarizə aparır. Amma bunu gördükləri halda da, bunun şahidi olduqları halda da reallıqları qəbul etməyənlər ölkəmizə qarşı ədalətsiz yanaşma sergilədilər və təəssüf ki, bu paradoksallıq hələ də davam etməkdədir.***







## Beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymayanlara qarşı hansısa sanksiya barədə düşünülməyib və hələ də düşünülmür

Azərbaycan ərazilərini işğal edən, ölkəmizə təcavüz edən və düz 30 ilə yaxın müddət ərzində torpaqlarımızı qanunsuz olaraq nəzarətində saxlayan Ermənistan tərəfi beynəlxalq hüququn norma və prinsplərinə məhəl qoymadığı halda, dünya ölkələri, beynəlxalq təşkilatlar tərəfindən heç bir sanksiyaya, heç bir təzyiqə məruz qalmadı. BMT kimi mötəbər bir qurum Ermənistanın silahlı birləşmələrinin qeyd-şərtsiz olaraq Azərbaycan ərazilərini tərk etmələrini tələb edən dörd qətnamə qəbul etsə də, rəsmi İrəvan buna düz 30 il məhəl qoymadı və bunun özünə də bir reaksiya verilmədi. Heç bir beynəlxalq qurum rəsmisi belə BMT qətnamələrinin də olsa icrası tələbi barədə Ermənistana xatırlatma da olsa etmədi. Soyqırımlara imza atan Ermənistana buna görə də heç bir qınaq olmadı. Azərbaycan ərazilərində düz 30 il müddətində bütün təbii sərvətlər vəhşicəsinə talandığı zaman da səsini çıxaran beynəlxalq qurum, yaxud da hansısa qurumun rəsmisi tapılmadı. Ərazilərimizi tərk etdikləri zaman torpaqlarımıza mina basdırıldığına görə də ermənilər sorğulanmadı. Mina terroru edənlərdən bunun hesabını soran bircə dənə də olsa beynəlxalq qurum görmədik. Bir-birinin ardınca hələ də minaya düşərək ya həyatını, ya da sağlamlığını itirən dinc Azərbaycan vətəndaşlarının mina terrorunun qurbanı olmalarına görə Ermənistan tərəfi heç qınanılmadı da. Əksinə, Azərbaycanın Qarabağ iqtisadi rayonunda müvəqqəti məskunlaşan və öz xoşu ilə Ermənistana köç edən ermənilərə görə onlara milyonlarla dollar vəsait yardımı edildi. Ərazilərini Ermənistan silahlılarının, terrorçularının basdırdığı minalardan təmizləyən Azərbaycana belə yardımlar haqqında da düşünülmədi. Halbuki, ərazilərin minalardan təmizlənməsi də maddi vəsait tələb edir və eyni zamanda mina terroru ilə yanaşı, istənilən layihəyə, prosesə maneçilik də törədir, ümumilikdə ziyan da vurur. Bunlar hayların uydurmaları, illüziyaları deyil, göz önündə olan reallıqlardır və bu qədər reallıqların fonunda müşahidə edilən paradoksallıq dünyanın gözü qarşısındа hələ də seyr edilir, özü də düz əsrin üçdə birinə yaxın müddət ərzində.

## Münaqişənin hərbi yolla həllini istəməyənlərin onun diplomatik yolla həllinə nail ola bilmədikləri halda, nəyəsə ağız büzmələri yersizdir

Münaqişənin dinc yolla həll edilməsi üçün düz 30 ilə yaxın müddətdə səbr edən, diplomatik yolla həll edilməsinə çalışan rəsmi Bakı, sonda Ermənistan tərəfinin buna məhəl qoymadığına tam əmin olduqdan sonra məsələnin hərbi yolla həllinə nail oldu, hansıki, həmin o susqunluq nümayiş etdirənlər, reallıqları, həqiqətləri görməməzliyə vuranlar buna görə indi Azərbaycanı hədəfə almağa çalışırlar. Onlardan sual olunur ki, əgər məsələnin hərbi yolla, özlərinin dedikləri kimi ifadə etsək, güc yolu ilə həllini istəmirdilərsə, niyə 30 ilə yaxın müddət ərzində münaqişənin dondurulmuş vəziyyətdə saxlanılmasına çalışırdılar və həllinə bircə dənə də olsa töhvə vermək istəmirdilər? Axı bu münaqişə həll edilməli idi və həllinin iki yolu var idisə, biri diplomatik yol idi, digəri də hərbi yol. Əgər hərbi yolla həllini istəmirdilərsə, deməli, diplomatik yolla həllinə nail olmalı idilər və buna nail olmadıqları halda bizim öz məsələmizi özümüzün həll etməyimizə ağız büzmələri yersizdir. Ümumiyyətlə, indi ağız büzənlərin mövqeləri ilə iddiaları arasında kəskin fərq, təzad, paradoksallıq var və bunu isbat etmək heç də çətin deyil.

Dünyanın üç ölkəsi, ABŞ, Fransa və Rusiya həmsədr ölkə olaraq, haqqında qeyd olunan münaqişəni həll etmək üçün mükəlləf idilər. Halbuki onlar bu qədər illər ərzində ancaq deklarativ bəyanatlarla kifayətlənməyi məqbul hesab etdilər. Bir sözlə, məsələnin həlli istiqamətində heç bir real iş görmədilər. Müxtəlif platformalarda görüşlər keçirməklə öz işlərini bitmiş hesab edənlər indi Azərbaycanın məsələsini öz hesabına, öz gücü ilə həll etməsindən sonra elə bil yuxudan ayılan kimi olublar və regiona, eləcə də danışıqlara burun soxmağa çalışırlar. Azərbaycanın təklifi ilə artıq danışıqlar ikitərəfli qaydada aparıldığı halda, razılaşmalara da nail olunduğu halda, Qərbin, yaxud da Avropanın ortaya atılmasına indi nə ad qoymaq olar? Belə ortaya düşən idilərsə, artıq keçmişdə qalan münaqişə mövcud olduğu zaman ortaya atılardılar və əgər o zaman fəaliyyətsizlik nümayiş etdiriblərsə, indi qondarma canfəşanlıqlarıı çox bayağı görsənir və bu elə əsl təzad, əsl paradoksallıq deməkdir.

## Ən gülünc, təzadlı və paradoksal məqam səfir Libbinin "Azadlıq" radiosunun Azərbaycan redaksiyasına müsahibəsində dedikləridir

Ən maraqlı, daha doğrusu, ən təzadlı və paradoksal məqam ondan ibarətdir ki, Ermənistan tərəfi artıq rəsmi şəkildə Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda, bəzi kənar qüvvələr hələ də bunu etiraf etməkdən boyun qaçırırlar. Xatırladığımız kimi, Rusiya Prezidenti Vladimir Putin demişdi ki, Ermənistan özü Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf edirsə, o zaman Rusiya buna başqa heç bir reaksiya verməz. Əslində, bu çox doğru yanaşmadır və həqiqətən də Rusiya liderі məntiqi şəkildə cavab verib. Amma indi bir çoxları bunu ya başa düşmürlər, ya da özlərini qanmazlığa qoymaqla, çox təzadlı mövqe nümayiş etdirirlər. Azərbaycanın ərazi bütövlüyünü Ermənistan tərəfi tanıdıqdan sonra, erməni baş nazir bunu rəsmi yığıncaqda özü ifadə etdikdən sonra hansısa ölkə rəsmisinin, yaxud da hansısa beynəlxalq qurum rəsmisinin bunu nəzərə almadan bir də həmin məqamla bağlı fikir səsləndirməsi heç bir məntiqə və normaya sığışa bilməz, heç sığışmır da.

Artıq üç ildən çoxdur ki, ABŞ səfirləri, daha dəqiq desək, əvvəlcə Erl Litzenberqer, indi isə Mark Libbinin məhz Qarabağın mirvarisi olan Şuşa şəhərinə səfər etməkdən qəti şəkildə imtina etmələrinə qətiyyən don geyindirmək olmur. Səbəblərini də özləri bilirlər, amma biz onların olmayan ağıllarından keçəni də, nəzərdə tutduqları səbəbləri başa düşmürük, daha doğrusu başa düşmək istəmirik. Çünki heç bir məntiqə sığışmır. Maraqlıdır, əgər ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, onda problem nədir ki, Amerikanın Azərbaycandakı səfiri Şuşaya səfər etməkdən boyun qaçırır? Ən gülünc, təzadlı və paradoksal məqam isə səfir Libbinin "Azadlıq" radiosunun Azərbaycan redaksiyasına müsahibəsində dedikləridir. "Aydındır ki, qaytarılan ərazilər bir qədər fərqlidir. Daha çox koordinasiyaya ehtiyac var. Ancaq mən hardasa təşkil olunan şounun iştirakçısı olmaq istəmirəm. Ona görə də vaxtı gələndə bunu edəcəm", deyən ABŞ səfiri nə sayıqladığını deyəsən özü də başa düşmür. Bu adam hansı şoudan danışır? "Fərqli" dedikdə nəyi nəzərdə tutur? Bir belə sayıqlama olmaz axı. Ən azından Amerika boyda yekə bir ölkənin səfirinin belə təzadlı fikirlər səsləndirməsi hədsiz dərəcədə gülüncdür. Yəni həqiqətən də ABŞ səfiri elə hesab edir ki, rəsmi Bakının Azərbaycanda akkreditə olunmuş diplomatların nümayəndələri üçün təşkil etdiyi Şuşa səfərlərini məhz belə xarakterizə edə, onu şou adlandıra bilər? Doğrudan da Amerika səfiri başa düşmür ki, belə fikir səsləndirməklə təkcə Bakıya qarşı deyil, diplomatik nümayəndələri Şuşaya böyük nümayəndə heyətlərinin tərkibində səfər etmiş bütün ölkələrə qarşı qəbuledilməz hörmətsizlik edir? Amerikalı diplomat dərk edə bilmir ki, əvvəla digər səfirliklərdən olan həmkarlarını hansısa şounun iştirakçısı adlandırır və bunun ardınca da həmkarları ilə, digər ölkənin diplomatları ilə bir səyahəti özünə sığışdırmadığını bəyan etməklə normaları da ayaqlayır.

## Amerikalı diplomatın timsalında kimsə özünü haylara göstərmək üçün axmaq sayıqlamalarla çıxış edirsə, özünü rüsvay etmiş olur

Şuşa Azərbaycanın mədəniyyət paytaxtı sayılır və həmin şəhərə səfər etməkdən boyun qaçırmasına görə "izahat" vermək istədiyi zaman amerikalı diplomatın söylədikləri həm gülüncdür, həm də təzadlı. Doğrudur, onun sonradan Azərbaycanın mədəniyyət paytaxtına, Şuşaya səfər edib-etməməsi artıq bizi bir o qədər maraqlandırmır. Amerikalı diplomat guya Şuşaya səfər etməsə idi nə olacaqdı? Məsələ burasındadır ki, Şuşanın da digər şəhərlərimiz kimi Azərbaycana məxsus olduğunu hər kəs bilirsə və bunu Ermənistan tərəfi də etiraf edirsə, deməli, hansısa diplomatın özünü ermənilərə də "göstərmək" niyyəti də mənasızdır. Əgər həqitən də amerikalı diplomatın timsalında kimsə özünü haylara göstərmək üçün belə axmaq sayıqlamalarla çıxış edirsə, birinci növbədə özünü rüsvay etmiş olur, çünki bununla nəyə isə nail ola bilmir. Digər tərəfdən də, bunun artıq ermənilər üçün də fərqsiz olduğunu nəzərə aldıqda, ümumiyyətlə mənasız davrandığı ortaya çıxır. Artıq ermənilər də hamı kimi qəbul edirlər ki, Şuşa Azərbaycana məxsusdur və bəzən aralarında hansısa sayıqlayan revanşistlər nə isə uydurma uydursalar belə, haylar bunun əksini daha təsəvvürlərinə belə gətirə bilmirlər.

Ümumiyyətlə, təkcə ABŞ səfiri Libbi deyil, hansısa diplomat, yaxud kimsə müvafiq şəkildə ermənilərə özünü göstərmək niyyətinə düşmüş olsa böyük səhvə yol vermiş olar. Artıq Azərbaycanın öz əzəli və əbədi torpaqlarını, ərazilərini işğaldan azad etdiyini erməni cəmiyyəti başa da düşüb, qəbul da edib. Təsadüfi deyil ki, bu boyda dünyada bu yekəlikdə lobbiyə arxayın ola bilən ermәni baş nazir Nikol Paşinyanın özünün də artıq reallıqla barışmaq məcburiyyətində qaldığı göz önündədir. Deməli, çarəsizliyik, reallıqla barışmaqdan başqa yolun olmaması artıq inkar edilə bilməz. Belə olan halda, hansısa bir ölkə diplomatının, yaxud hansısa bir siyasətçinin, hansısa beynəlxalq qurum rəsmisinin özünü ortaya atması gülünc olduğu qədər də təzadlı görünür. Daha dəqiq desək, haylar özləri belə həqiqətləri, reallıqları qəbul etdikləri halda, yəni reallıqların fonunda kimlərinsə buna əks mövqe nümayiş etdirməsi paradoksallıqdır və hər halda bunu müşahidə edən dünya ictimaiyyəti həmin təzahürə heç də yaxşı baxa bilməz.

***İnam Hacıyev***

# "Heydər Əliyev 101: dövlət idarəçiliyində liderlik"





**Mayın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurası və YAP Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev 101: dövlət idarəçiliyində liderlik" mövzusunda gənclərlə görüş keçirilib.**





Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında keçirilən görüşdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib.

Tədbirin moderatoru YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. Onun sözlərinə görə, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, ölkəmizdə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Azərbaycan gəncliyi 44 günlük Vətən müharibəsində böyük şücaət göstərərək tarix yazdı.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxışında qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti dövlətçilik məktəbidir. Onun sözlərinə görə, gənclər Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla getməlidirlər. Çünki bu yolun alternativi yoxdur. A.Rəhimzadənin sözlərinə görə, millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip kimi qəbul edən Ümummilli Lider bugünkü müstəqil Azərbaycanın banisidir. Ulu Öndərin həyatı daim mübarizələrdə keçib və o, hər zaman qalib gəlib. Ona görə də Ulu Öndərimizin həyat və fəaliyyəti gənclərimiz üçün nümunədir. YAP Veteranlar Şurasının sədri əlavə edib ki, Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi cənab İlham Əliyevdir. Prezident İlham Əliyev bu gün Heydər Əliyev siyasətini uğurla davam etdirir. "Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan gəncliyinə qayğı ilə yanaşıb, gənclərin inkişafını xüsusi diqqət mərkəzində saxlayıb. Gənclərimiz Heydər Əliyevin zəngin irsini dərindən öyrənməli, Ulu Öndərin ideyalarına həmişə sadiq olmalıdırlar", -deyə A.Rəhimzadə vurğulayıb.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə Ümummilli Lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı misilsiz xidmətlərdən bəhs edib. Heydər Əliyevi böyük dövlət xadimi və güclü sərkərdə kimi xarakterizə edən D.Seyidzadə bildirib ki, bu dahi şəxsiyyət bütün həyatını Azərbaycana həsr edib. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən, dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi.

D.Seyidzadə çıxışında Ulu Öndər Heydər Əliyev haqqında xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. YAP Veteranlar Şurasının üzvü gənclərə tariximizi, o cümlədən Heydər Əliyev irsini dərindən öyrənməyi tövsiyə edib. Çünki bu irs əslində, böyük dövlətçilik irsidir. "Hər bir gənc yüksək biliklərə yiyələnməli, qazandığı bilik və bacarıqları müstəqil ölkəmizin inkişafına həsr etməli və Prezidentimiz İlham Əliyevin siyasətinə dəstək olmalıdır", -deyə o söyləyib.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov bildirib ki, Azərbaycanın əldə etdiyi uğurların bünövrəsi Heydər Əliyev amili ilə bağlıdır. Çünki Heydər Əliyev dünya miqyasında dahi siyasətçi və görkəmli dövlət xadimidir. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin siyasətində ən vacib məqamlardan biri milli kadr potensialının formalaşdırılması ilə bağlı olub. Ulu Öndərin rəhbərliyi altında təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksəkixtisaslı mütəxəssislərin, o cümlədən hərbi kadrların yetişdirilməsi gələcək dövlətimiz üçün zəruri intellektual potensial yaradıb.

YAP Veteranlar Şurasının üzvü qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan davamlı olaraq inkişaf edir və güclənir. Daha sonra gənclərin suallarına cavablandırılıb.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# COP29-a ev sahibliyi: qazancımız və məsuliyyətimiz nədir?

**Bu il Azərbaycan COP29 kimi böyük və vacib tədbirə ev sahibliyi edəcək. Bu, ilk növbədə Azərbaycana olan inam və etimadın, habelə Azərbaycandakı sürətli inkişafa, aparılan islahatlara, görülən işlərə verilən beynəlxalq qiymətdir. Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməyi mühüm əhəmiyyət kəsb edir və belə tədbirin ölkəmizdə keçirilməsi çox vacibdir. Həm ölkəmizin beynəlxalq nüfuzu baxımından, həm yeni iqtisadi layihələr baxımından, həm də yeni tranzit imkanları baxımından. Bu, real faktdır, sözgəlişi sözlər deyil. Bu gün hər kəsin qəbul etdiyi həqiqət və reallıq isə budur: Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır.**

Yenə deyirəm, bunlar sadəcə, xoşagəlimlilik üçün söylənilən standart cümlələr deyil, real mənzərinin güzgüsüdür. Bütün bunlar həm də aparılmış məqsədyönlü dövlət siyasətinin bariz nümunəsidir. Bu gün ölkəmiz artıq COP29-a hazırlığın fəal mərhələsindədir. İndi gələk COP29 barədə əsas məsələyə. Bu beynəlxalq tədbirdən gözləntilərimiz nədir, qazancımız və məsuliyyətimiz nədir?

Bəli, COP29-a ev sahibliyi etmək Azərbaycan üçün geniş imkanlar yaradacaq. Daima iqtisadi və siyasi mənada olduqca vacib platforma, əlaqə mərkəzi kimi sayılan Azərbaycan, son illərdə ən önəmli iqtisadi layihələr üçün açar rolunu oynayıb. Məlumdur ki, güclü enerji resurslarına, neft və qaz ehtiyatlarına sahib olan Azərbaycan bu gün Avropa üçün də ən önəmli enerji tərəfdaşı və enerji transfarmatorudur. Vladimir Putinin hər il Avropa qitəsini soyuqdan dondurduğu bir vəziyyətdə Bakı nefti və qazı ən güclü iqtisadi silah kimi gündəmdədir. Hər kəs, - istər avropalısı olsun, istər bir başqa qitə - Azərbaycanın enerji tərəfdaşı olmaq üçün can atır. Böyük enerji resurslarına sahib olan bu odlar yurdu ölkəsi həm də əməkdaşlıq və yeni imkanlar üçün cazibə mərkəzidir.

Bu, həmçinin, böyük məsuliyyətdir. Əlbəttə, Azərbaycanın bu ilin noyabr ayında COP29-a ev sahibliyi qlobal miqyasda ölkəmizin güclü diplomatiyasının və çoxtərəfli danışıqlar zamanı etibarlı tərəfdaş nüfuzunun təsdiqidir. Bundan əvvəl Azərbaycan BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi nüfuzlu beynəlxalq təsisatlarda uğurla sədrlik etmişdir. Azərbaycanın ayrı-ayrı dövlətlərlə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrinin inkişafı ev sahibliyi etdiyi tədbirlərin yüksək səviyyədə keçirilməsində də öz sözünü deyir.

Daha bir məqama diqqət yetirək. COP29-a ev sahibliyi barədə qərarın qəbul olunmasında iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasətin də böyük rolu vardır. Prezident İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə 2024-cü ilin Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ətraf mühitin qorunmasına böyük diqqət və həssaslıqla yanaşmanın göstəricisidir. Məlum olduğu kimi, Azərbaycanda "yaşıl enerji" istehsalının inkişafı perspektivləri regional və beynəlxalq əhəmiyyət daşıyan tədbirlərdə geniş müzakirə olunur.

Daha bir fakt da diqqətdən qaçmır ki, Azərbaycan 2030-cu ilədək bərpa olunan enerji həcminin üç dəfə və enerji səmərəliliyinin iki dəfə artırılması ilə bağlı qlobal təşəbbüsə qoşulub. Bütün bu qanunvericilik və institusional tədbirlər Azərbaycanın bütün dünyanın diqqət mərkəzində olan "yaşıl enerji"yə keçid strategiyasını reallaşdırmaq üçün mühüm tədbirlərin hamısını həyata keçirmək istiqamətində çalışdığını sübut edir. Daha bir məqam xüsusilə qeyd olunmalıdır ki, COP29 üç Cənubi Qafqaz ölkəsi arasında ən azı məsləhətləşmələri aparmaq üçün fürsət yaradacaq və gələcək əməkdaşlıq üçün yol açacaq. Hazırda unikal şans yaranıb. Çünki COP29 həm də bölgədə tamamilə yeni münasibətlərin və yanaşmaların ortaya çıxması baxımından da qiymətli tədbir hesab olunur. Artıq Ermənistanın özündə köhnə totalitar, militarist və separatçı düşüncənin darmadağın olunması üçün aşkar addımlar atılır. Düzdür revanşist, separatçı streotip düşüncənin erməni cəmiyyətindən silinməsi olduqca ağır və dəhşətli prosesdir. Amma əmin olmağa dəyər ki, COP29 həm də Cənubi Qafqzda müharibə əvəzinə inteqrasiya və sülhə yönələn düşüncələri və təşəbbüsləri daha da gücləndirəcək. Əslində bölgənin bu gün ən çox ehtiyacı olduğu məsələ məhz inteqrasiya, yeni düşüncə və sülh prosesidir.

Və sonda, unutmayaq ki, COP29 yaşıl enerjiyə keçidi sürətləndirmək üçün müzakirə və fəaliyyət üçün kritik platforma olacaq. Nəzərə alsaq ki, bu mühüm tədbirdə dünyanın hər yerindən dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların, biznes və vətəndaş cəmiyyətinin nümayəndələri, iqlim dəyişikliyi, bərpa olunan enerji və davamlı inkişaf üzrə ekspertlərin iştirakı gözlənilir, o zaman COP29-un əhəmiyyətlilik dərəcəsi göz önündə aydınca canlanır.

Beləliklə, "COP29-a ev sahibliyi Azərbaycana nə qazandıracaq" - sualına bu möhtəşəm tədbirə uğurla ev sahibliyi etdiyimiz zaman qazanacağımız uğurlarla birlikdə cavab tapacağıq. Bu gün Azərbaycan etimad, inteqrasiya və əməkdaşlıq məkanıdır. Həmişə olduğu kimi!

# “Bu gün Azərbaycan davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır”





“Azərbaycan beynəlxalq müstəvidə güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında müasir çağırışlara, milli maraqlara uyğun reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq olunması və hədəflənən nəticələrin əldə edilməsi, siyasi, hüquqi və sosial-iqtisadi islahatların davamlı olaraq həyata keçirilməsi, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, müasir dövrdə qloballaşma şəraitində dünyanın bir sıra bölgələrdə mürəkkəb proseslər baş verir: "Bəzi ölkələrdə maliyyə-iqtisadi və siyasi böhran hallarına rast gəlinir. Xüsusilə, müxtəlif regionlarda münaqişələrin, müharibələrin mövcud olması qlobal kataklizmlərin mövcudluğundan xəbər verir. Ətraf, yaxın regionlarda da belə mürəkkəb vəziyyət müşahidə olunur. Bu gərginlik isə siyasi kataklizmlərin dərinləşməsini şərtləndirir ki, bu da nəticə etibarilə, həm inteqrasiya və əməkdaşlığı zəiflədir, həm də siyasi münasibətlərdə müəyyən qədər etimadsızlıq mühitinin, ziddiyyətlərin artmasına səbəb olur. Belə olan şəraitdə milli dövlətlərin siyasi sabitliyi və iqtisadi inkişafı təmin etmələri daha çox strateji əhəmiyyət kəsb edir. Bu kontekstdə ölkəmizin təcrübəsi müsbət və mütərəqqi nümunə kimi diqqəti cəlb edir. Yəni, qlobal miqyasda hökm sürən belə bir mürəkkəb şəraitdə Azərbaycan ictimai-siyasi sabitliyin təmin olunduğu, pozitiv beynəlxalq imicə sahib olan ölkələr sırasında aparıcı yerlərdən birini tutur.

Millət vəkilinin sözlərinə görə, bu gün Azərbaycan, sözün əsl mənasında, sabitlik adası kimi xarakterizə olunur: "Ölkəmizin milli gücünü artıran əhəmiyyətli amillərdən biri də möhkəm təməllərə söykənən ictimai-siyasi sabitlikdir. Azərbaycanda mövcud olan sabitliyin əsasında duran başlıca faktor hakimiyyətin həyata keçirdiyi siyasi kursun milli maraqlara tam cavab verməsidir. Bütövlükdə, Azərbaycan vətəndaşlarının layiqli həyat şəraitinin təmin edilməsində, sosial rifahın yaxşılaşdırılmasında, inkişafın davamlı olmasında mühüm rol oynayan amillərdən biri etibarlı təhlükəsizlik və sabitlik mühitidir. Təsadüfi deyil ki, beynəlxalq reytinq agentliklərinin hesabatlarında da ölkəmizdə hökm sürən etibarlı sabitlik mühiti öz əksini tapır və yüksək qiymətləndirilir.

"Bütün bunlarla yanaşı, ölkəmizin milli təhlükəsizliyi yüksək səviyyədə təmin edilib. Siyasi, iqtisadi, hərbi, sosial, ekoloji və digər istiqamətlərdə təhlükəsizliyin təmin olunması strateji maraqların gerçəkləşməsinə və inkişaf dinamikasının davam etməsinə əlverişli şərait yaradıb. Şübhəsiz, hər bir ölkənin milli təhlükəsizliyi müxtəlif istiqamətlərdə təhdid ünsürlərinin neytrallaşdırılması və neqativ faktorlarla mübarizə metodlarının düzgün müəyyənləşdirilməsindən asılıdır. Azərbaycanda milli təhlükəsizliyin təmin olunmasına konseptual yanaşma mövcuddur və təhdid ünsürləri effektiv vasitələrlə neytrallaşdırılmaqdadır. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasında da ölkəmizdə sabitlik, Prezident İlham Əliyevin siyasətinin xalqımızın tərəfindən birmənalı olaraq dəstəklənməsi dayanırdı. Yəni, xalq-iqtidar birliyi uğurlarımızı şərtləndirən başlıca amillər sırasındadır. İctimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini göstərir",-deyə Sevinc Fətəliyeva vurğulayıb.

***Ləman Sərraf***

# İnsult olduqda NƏ ETMƏLİ?

## *HƏKİM AYDINLIQ GƏTİRDİ*

**“İnsult olduqda dərhal həkimə müraciət etmək lazımdır”. Bu sözləri SİA-ya açıqlamasında həkim-nevroloq Qalib Əsədov deyib.**

**O bildirib ki, insultun ilk əlamətləri bunlardır: "Bədənin hər hansısa bir hissəsində - sifət, əl və ayaqda əzələ zəifliyinin əmələ gəlməsi;**

Qəfildən görmənin zəifləməsi və ya tamamilə yox olması;

Danışma qabiliyyətinin pozulması;

Baş gicəllənmədən, ayağadura bilməməkdən şikayətlər;

Qəfildən güclü başağrısı başlaması;

Arterial təzyiqin düşməsi;

Xəstənin sifəti qırmızı rəngə çalır, əlləri əsir, nəfəsalma çətinləşir, hərarət yüksəlir;

Udma qabiliyyətinin pozulması;

Qıcolma tutmaları;

Şüur pozulması;

İnsult zamanı bunları etmək lazımdır:

Əgər arterial təzyiq varsa, gündə ən azı 2 dəfə onu yoxlatmalısız. Yağlı yeməkləri az yemək, duzun miqdarını azaltmaq, çəkini qaydada saxlamaq lazımdır. İnsanlar özlərinə sakitləşdirici hobbi tapsalar yaxşı olardı: krossvord etməyə, əsərlər yazmağa, güllər əkməyə həvəs göstərsinlər”.



***Söylü Ağazadə***



Vəli Vəliyev

# Qubad cinayətkar ola bilməzmi?

**Çox maraqlı dövrdə yaşayırıq, başqaları haqqında hökm çıxarmaq, onların adından danışmaq, hətta qərar vermək sanki dəb halını alıb. Vay odur ki, istənilən bir şəxsin fotosunu dərc edəsən və altından da onun doğru-dürüst birisi olmadığını yazasan. Əsl mərəkə bundan sonra başlayır, düşürlər həmin adamım canına, sağdan-sola, aşağıdan-yuxarıya leksikonumuzda olmayan, amma bizə tanış notlar üzərindən nə ki söyüş var yağdırmağa. ”Harda aş, orada baş”lar arasında yazdıqları yalanları izləyicilərə sırımaq, daha inandırıcı olması üçün hətta Qurana and içənlər də olur. Nə deyirik, hər halda Quran sahibi bilər, onlar bilər...**

Ya da tərsinə olur, cinayət törətməkdə şübhəli bir şəxs haqqında xəbər işıq üzü görər-görməz başlayırlar, əvvələ ”Allah qapısını açsın” duasını etməyə, ikinci cümlə ”şərə salıblar” deməyə, üçüncü cümlə isə hakimiyyətə qarşı ittiham olur. Ötən ilin söhbətidir, Rəşad Dağlı adlı meyxanaçı aralarındakı mübahisə səbəbindən tanıdığı birisini bıçaqlayaraq o dünyaya göndərmişdi. Sosial şəbəkə yazıların ağırlığından bir tərəfi üstə qalmışdı. Nələrdən yazmırdılar? Hətta ”əcəb edib” deyənlər də var idi. İnsan dəhşətə gəlir, biri ölüb, o birisi isə dəmir barmaqlıqlar arasında ömrünün ən gözəl çağlarını keçirməyə məhkum edilib, bunlar isə şou peşindədirlər. İnanmıram ki, həmin ”yazarlar” özlərini ölənin, ya da öldürənin yaxınlarının yerinə qoysunlar. Başqalarına gələndə ağızlarına gələni, heç bir məhsuliyyət hiss etmədən tirajlayırlar.

Bu yazını yazmağa məni bir mövzu vadar etdi. İsveçrədə yaşayan jurnalist Elbəyi Həsənli yazıb ki, ”Qubad İbadoğlunun ayağına elektron qandal taxılması Azərbaycan siyasi mühitinin nə qədər eybəcər olmasından xəbər verir. Hüquq-mühafizə orqanları şəbeh çıxarır...”. Bu sözləri demək üçün adamın əlində təkzibolunmaz faktlar olmalıdır ki, bu da Elbəyidə yoxdur. Varsa, buyurub göstərsin, aidiyyəti qurumlara təqdim etsin, yeri gələndə şahid qismində çıxış etsin. E.Həsənli dövlət qurumuna iftira atır, onun fəaliyyətini şübhə altına alır. Söhbət hansısa məmurdan getmir, hədəf hüquq-mühafizə orqanlarıdır.

E.Həsənli yazır ki, ”Qubad İbadoğlunun saxta dollar buraxması, Fətullah Gülənlə əlaqələndirməsi gülüş doğuran ittihamlardır...”. Niyə? Bütün bu sadalananları vaxtilə Türkiyədə hakimiyyətin ən yüksək pilləsində oturan, kifayət qədər tanınmış şəxslər edibsə, generallar Gülənin tapşırığı ilə dövlət çevrilişinə cəhd zamanı öz xalqına atəş açıbsa, başqaları bunu edə bilməzmi? Yaxud Q.İbadoğlunun Fətullah Gülənlə əlaqəsi niyə gülüş doğurmalıdır ki, hansı əsasla bunu inkar edirsiniz? Mən də bunun həm doğru olduğuna, həm də da İbadoğlunun bu cinayətdə əlinin olmadığına inanmıram. Çünki əlimdə heç bir əsasım yoxdur, bunu yalnız hüquq mühafizə orqanlarının araşdırmalarından sonra müəyyən etmək olar. Qubad İbadoğlu kifayət qədər savadlı adamdır, iqtisadçıdır, pul qazanmağın yollarını da hər kəsdən yaxşı bilir. Gülənlə və yaxud onun ətrafı ilə təması da əllinin əlliyə nisbətindədir. Deməli, cinayətin baş verməə ehtimalı ən azı 50 faizdir.

Elbəyinin yazısından belə çıxır ki, sən demə hüquq-mühafizə orqanları tərəfindən İbadoğlunun istintaqa cəlb olunması ”Qarabağda əldə olunmuş möhtəşəm Zəfərə kölgə salır”mış. Hansı kölgədən söhbət gedir? Qubad İbadoğlu kimdir ki, ətrafında şübhəli şəxs qismində aparılan araşdırma xalqımızın birliyi, şəhidlərimizin, qazilərimizin qanı-canı bahasına əldə edilmiş qələbəni arxasında gizlədə bilsin. İmkan verin istintaq öz işini görsün, həqiqətlər üzə çıxsın, haqq-ədalət öz yerini tutsun. Münəccimlik, müştəbehlik etmək, başqasının əməlinə, fəaliyyətinə, cinayətinə don geydirmək, diqqəti məqsədli şəkildə yayındırmaq cinayətdən də betərdir.

”Qubad İbadoğlunun savadına, biliyinə bələdəm”, deyə bilmirəm. Çünki tanımıran, yazılarını oxumamışam, mühazirələdini dinləməmişəm. Haqqında yalnız ”savadlıdır” sözünü eşitmişəm ki, bu da kafi deyil və onun cinayət törətməyəcəyini sığortalaya bilməz. Cinayəti savadlılar da törədir, dəlilər, ağıldan kəmlər yox. Xarici xüsusi xidmət orqanlarının toruna düşənlərin əksəriyyəti ağlı və dünyagörüşü ilə başqalarından seçilənlər olub. Ona görə də ”filankəs bunu edə bilməz”, ”mən buna inanmıram”, ”hakimiyyət düzgün etmir” fikirləri yalnız ”dəryada saman çöpü”dür. Çalışın dürüst olun...

# Haqq-ədalətin bərpa olunduğu tarixi gün

## Qazanılan qələbələr Azərbaycan xalqının dünyada böyük xalq olduğunu bir daha təsdiqlədi

Tarixin müxtəlif dövrlərində ermənilər xarici himayədarlarının hərbi, siyasi dəstəyinə arxalanaraq azərbaycanlılara qarşı görünməmiş vəhşiliklər, qətliamlar törədiblər. Nəticədə iki əsr ərzində iki milyondan çox azərbaycanlı erməni vəhşiliyinin qurbanı olub. On minlərlə azərbaycanlı qətlimlar zamanı sağlamlığından olub, ev-eşiyindən məhrum edilib. Demək olar ki, Azərbaycanın bütün kənd və qəsəbələrində erməni vəhşiliyinin, vandalizm aktlarının izləri var. Quab məzarlığının, Şamaxıda, Ağdamda, Gəncədə və digər ərazilərdə aşkarlanan məzarlıqlar erməni vəhşiliyinin amansızlığının nümunələridir. Ermənilər hər zaman yaranan boşluqdan istifadə edərək Azərbaycana qarşı qəsbkar siyasət həyata keçirib. 1991-1993-cü illərdə Azərbaycanda baş verən siyasi böhrandan ermənilərin istifadə edərək vəhşi siyasətlərini həyata keçirmələrini misal olaraq göstərmək olar. Erməni terrorçu birləşmələri 1991-1993-cü illərdə Azərbaycanda yaranan hakimiyyət böhranından, AXC-Müsavat iqtidarının səriştəsizliyindən istifadə edərək 20 faiz torpaqlarımızı işğal edib, 1 milyona yaxın insanı ev-eşiyindən didərgin salmışdır. 26 il atəşkəs rejimində yaşasaq da, Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozulub. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd qətnamə qəbul etsə də, Ermənistan bu qərarlara əhəmiyyət verməyib. Bununla yanaşı, AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası Ermənistanın işğalçılıq siyasətini kəskin pisləyən bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə sülh danışıqları da nəticəsiz qaldı. Təbii ki, sonsuza qədər danışıqlar aparıla bilməzdi. Bir gün status-kvo dəyişməli idi və belə də oldu. Sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsində torpaqlarımızı Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğaldan azad edildi. 44 günlük müharibə ilə Ermənistanın 30 ilə yaxındır ki, qurduğu mühəndis-istehkam qurğuları, yüzlərlə hərbi texnikası, minlərlə canlı qüvvəsi məhv edildi. Dəyəri 4 milyard ABŞ dolları olan hərbi texnikası qənimət olaraq götürüldü. Bu, böyük qələbəmizdir. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək gücündədir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin dediyi kimi, atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın: ”Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq”.Qalib Azərbaycanın vətəndaşı olmağımızla qürur duyuruq. Fəxr edirik ki, uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır və 44 günlük Vətən Müharibəsində bu birlik daha da bərkiyərək dəmir yumruğa çevrildi.



### ”Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır”

Birmənalı şəkildə o fikiri vurğulamaq lazımdır ki, qələbələrimizin təməli sentyabrın 27-də qoyulsa da, 8 noyabr 2020-ci il Qarabağımızın incisi Şuşanın işğaldan azad edilməsi ilə Qarabağa qovuşduğumuz tarixdir. Bu böyük tarixi günlə Qarabağ münaqişəsinə nida qoyuldu və Ermənistan rüsvayçı məğlubiyyətini qəbul edib, təslimçilik aktını imzaladı. Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Noyabrın 10-da şanlı qələbəmizin təsdiqi olan üçtərəfli Bəyanatın imzalanması müjdəsini xalqa çatdırarkən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır: ”30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü topladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi”. Haqqımız olan qələbə təntənəli şəkildə qeyd olunmalı idi və oldu da. Noyabrın 10-da dostları sevindirb, düşmənləri xar edən Qələbə Paradı keçirildi. Qürurverici məqamlardan biri də ondan ibarət idi ki, müharibənin ilk günündən ürəyi, qəlbi Qarabağla döyünən qardaş Türkiyənin hakimiyyəti, xüsusilə də Prezident Rəcəb Tayyib Ərdoğan Qələbə Pardında da Azərbaycanla birlikdə oldu. ”Tarix təkrar olunur”-deyiblər. 100 il bundan əvvəl Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Azərbaycan Milli Ordusu ilə birlikdə Bakını erməni daşnaklarından azad etmişdir. Uğurlu hərbi əməliyyatlarla Azərbaycanın bütün bölgələri erməni terrorçularından təmizlənmişdir. Bu gün də, ulularının qardaşlıq dəstəyini əsirgəməyən Türkiyə qardaşlarımız başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağdan təmizlənməsində Azərbaycana mənəvi, siyasi dəstəyini əsirgəmədi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda keçirilən Zəfər paradında çıxışı zamanı bildirdi ki, Türkiyə hər zaman Azərbaycanın yanında olacaq: ”İnanıram ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dastan yazmağa davam edəcək. Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə hər zaman Ulu Öndər Heydər Əliyevin ”iki millət, tək dövlət” şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Qarabağın 30 il işğalda qalmasını qəlbimizdə yara bildik. Bu gün də Qarabağın azad edilməsini birlikdə qeyd edirik”.



### Qələbələrimiz və uğurlarınız isə hələ qabaqdadır

Qələbə Paradında Türkiyə Ordusunun mehmecikləri sıra keçidində qürurla və əzmlə keçdilər. Bu məqamda Türkiyə qardaşlarımızın bizə olan hədsiz rəğbətinin daha bir nümunəsi ondan ibarət idi ki, Qarabağda şəhid olan 2783 şəhidimiz sayında mehmetçik sıra keçidində iştirak etdilər. Əhsən belə qardaşlığa, var olsun belə birlik. Söz yox ki, qələbə paradımızın yolu uğurlu və xeyirli olacaq. Qələbə Paradı Azərbaycan Silahlı Qüvvələrinin tarixinə, hərb tariximizə yaddaşlardan silinməyəcək şanlı bir səhifə kimi yazılmaqla yanaşı, həm də zamanında Ermənistana pay olaraq verilən Zəngəzurun, Göyçənin, İrəvanın Böyük Azərbaycan torpaqlarına qatılmasına işartı olacaq. Prezident, Ali Baş Komandan İlham Əliyevin Qələbə Paradında dediyi fikirlər də ümidləri artırır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Qələbə Pardında Zəngəzurun, Göyçənin, İrəvan mahalının bizim tarixi torpaqlarımız olduğunu bildirdi: ”Azərbaycan 30 ilə yaxın işğal altında yaşayırdı. 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olub. Əslində, Ermənistanın aqresiv təcavüzkar siyasəti hələ 80-ci illərin sonlarından başlamışdır. O vaxt indiki Ermənistan respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb”.

2023-cü il sentyabrın 19-da başlayan və 23 saat 44 dəqiqə çəkən antiteror əməliyyatları ilə Qarabağdakı bütün sepratçılar məhv edildi, əsas icraçılar isə həbs olunaraq Azərbaycan hüquq-mühafizə orqanlarına təhvil verildilər. Yaxın vaxtlarda isə onların məhkəməsi keçiriləcək və layiq olduqları cəzalarını alacaqlar. Antiterror əməliyyatları ilə Azərbaycan tam şəkildə öz suverenliyini bərpa etdi. Ali Baş Komandan, Fateh Sərkərdə İlham Əliyev Xankəndidə, Xocalıda, Əsgəranda, Xocavənddə və digər ərazilərdə üçrəngli bayrağımızın dalğalandırılmasını təmin etməklə bəşəriyyətə bu yerlərin əbədi olaraq Azərbaycanın ayrılmaz hissəsi olduğunu nümayiş etdirdi. Artıq işğaldan azad edilən ərazilərimizdə geniş quruculuq, abadlıq, bərpa işləri həyata keçirilir. İnsanlar davamlı olaraq bərpa olunan evlərinə qayıdırlar. Qələbələrimiz və uğurlarımız isə hələ qabaqdadır. Yaxın günlərdə üçrəngli bayrağımızın dalğalandığı Xankəndinə, Xocalıya, Xocavəndə, Əsgərana, Şuşaya və digər işğaldan azad edilən ərazilərə insanlarımız qayıdacaq və o tarixi yerlərimiz yenidən normal axarına düşəcək. Bütün bu kimi möhtəşəm uğurlarımıza görə təbii ki, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətə borcluyuq. Həm də minnatdarıq ki, Ulu Öndərimiz Heydər Əliyevin siyasətini Prezidentimiz İlham Əliyev uğurla davam etdirməklə ölkəmizə və xalqımıza əksər dünya xalqlarının həsəd apardığı zəfərlər qazandırdı.

**İLHAM ƏLİYEV**

# ŞUŞA:
## xarıbülbülün monoloqu

***X**alqımın dilində bir kəlam var: kiminin əvvəli, kiminin sonu. Mənim əvvəlim qəm, kədər, ələm olub. Nakam bir məhəbbət yaşamışam. Küləyin qısqanclığı ilə sevdiyimi sinəmdəki tikanımla məhv etmişəm. Külək çəkə bilmədi bizim bir-birimizə sevdamızı. Çırpdı bülbülü tikanlarım üzərinə. Ölümünə fərman verdi. Bülbülümün al qanı göz yaşlarıma qarışdı. Mən bu rəngləri haradan almışam, bilirsən? O qarışımdan. Köksümdəki əlvan rənglərə bülbülümün də rəngləri qarışıb. Sevdiyimi köksümdəcə dəfn etmişəm. O vaxt, bu vaxt mən həm güləm, həm bülbüləm. Qarabağın həm ətri, həm nəğməsiyəm...*

Qarabağın baş tacı Şuşanın çiçəyiyəm. Bu dağların həm qızı, həm oğluyam. Şuşamın qırmızı köynəkli, yaşıl ətəklisiyəm. Qarabağın ağ at üstə mərdiyəm, igidiyəm. Həm ətriyəm bu yurdun, həm ərəni. Nə dünyada oxşarım var, nə bənzərim. Nə də mənim taleyimi yaşayan biri.

Deyirdim bəs bülbülümlə dərdim bitdi, nə etməli, qismət bu imiş. Köksümdəki bülbülümlə yaşayaram bundan sonra. Bir ömrü, nə etməli, elə bu cür yaşayaram. Ta bilmədim nələr, nələr var qarşıda. Bilmədim ki, küləkdən də qısqancı var bu ellərin. Gözləri ac, qəlbi bomboş düşməni var Qarabağın. Bilməzdim ki, köksümdəki bülbül nədir, arxamdakı dağlar boyda irəlidə dərdim, sərim olacaqmış. Düz otuz il Qarabağa bahar fəsli gəlməyəcək, mənimsə son baharın 90-larda qalacaqmış...

Baharsız xarıbülbül olarmı? Əsla olmaz. Nə baharsız, nə Qarabağsız xarıbülbül olardı? Mənim torpaqdan başımı qaldıran bu ellərdəki insanların nəfəsiydi. Gözlərimin önündəcə evləri gəlmişdi. Sərkərdəsi ata vəsiyyətini yerinə yetirməkçün gələn oğul idi. Hər tərəfdə silah səsi qulaqları batırırdı. Batırdıqca oyanırdım. Bu səslər mənə xoş gəlirdi. Təşnəsilə yanıb kül olduğum doğma səslər buradakı ocaqları yandırmağa gəlmişdi. Yağıları bu torpaqdan əbədiyyən qovmağa, bu əzəli yurdlara yeni həyat verməyə gəlmişdi.



Düz 44 gün bağrım üstdən nə ağırlıqda tanklar keçdi, dedim ki, bəs bülbülüm geri dönüb. Düz 44 gün su yerinə yenə qan içdim. Dedim ki, bəs bülbülümün qanı axır sinəm üstə. Yüzlərlə oğul can verdi torpaq üstə. Aldım qoynuma, ağı dedim, ağladım. Bir gözümdə ələm, qəm, o birində vüsal vardı. Bilirdim ki, qan axmadan Qarabağın qara bəxtini ağ rəng süsləyə bilməzdi. Bu ədalətsiz dünyanın haqsızları Qarabağçün susacaqdı. Bilirdim ki, bu torpaqlar müharibə olmadan qayıtmayacaqdı.

Nə qanlar, qadalar gördüm 44 gündə. Şəhidimi, qazimi qucaqladım. Onlara qara sevdamdan danışdım. Şəhidimə hələ neçə il əvvəl yarsız qaldığımı söyləməklə təsəlli oldum. Ana oldum, laylay çaldım hər mərdimə, igidimə:

Əzizinəm ər ölər,
İgid ölər, ər ölər.
Vətən, torpaq, el üçün
Yüzlər yox, minlər ölər.
Heyranam Qarabağa,
Qara yox, bəxti ağa.
Qurbanam igidimin
Yağıya çəkdiyi dağa.
Əzizinəm, ağlaram,
Mən sinəmi dağlaram.
Qarabağda qürurdan
Şalımı al bağlaram.

Yurd yerlərim bir-bir azad olduqca, dalğalanan bayrağımı da gördüm. 30 il həsrət qaldı-









lərindən qovuldular. Zorla, silahın burnunda yurdlarını tərk etdilər. Gözlərimin qarşısında övladları şəhid oldu. 90-larda mən qan içdim su yerinə. Gözlərimin qarşısında minarətək evlər çökdü. Qapıların qıfılları könül evimi bağladı. Kimsəsiz həyət-bacalar, ot basmış yol, cığırlar, hər Novruzda yol gözləyən qəbirlər ürəyimə dağ çəkdi. Hər kəs getdi, burada qalan bir torpaq, bir mən oldum.

Nə isə... Gün gəldi ki, baharım payız oldu. Ha istədim torpaqdan boylanmağa, gördüm bu ellərdə günəş yoxdur, boylana bilmədim, bir doğmamın nəfəsini duymadım, niyə boylanardım? Düz otuz il torpağın altını özümə məskən seçdim. Hərdən ayaq səslərini duyurdum. Bu səslər düşmənin ayaq səsiydi. Duyduqca daha dərinlərə kök atırdım. Onların nə üzünü görmək, nə səsini duymaq istəyirdim.

Çəkilmişdim öz dünyama. O dünyada Qarabağlı günlərimlə baş-başaydım. Ömrümün baharı da vardı, qışı da vardı: baharda boylanardım günəşə sarı, doğma üzlər görərdim; doğma səslər eşidərdim, doğma əllər görərdim, dərər məni, evlərində əzizlərdi, süfrələri, otaqları bəzəyərdim; gözəlliyimlə fəxr edər, hər dəfə məndən danışanda həm kədərlənər, həm də qürurlanardım: bülbülümlə, sevgimə sadiqliyimlə...

















Bu dünyamda düz iyirmi səkkiz il yaşadım. Elə bil ki, heç mən adda bir gül yox imiş. Görünmədim yad gözlərə. Gözlərimi dikdim uzun-uzun yollara. Bir gün bu yollardan gələn tanış addımları duyacaqdım. Bu yollardan doğmalarımın səsləri eşidiləcəkdi. Onlar bu yurda qayıdacaqdılar. Mən o zaman bu torpaqdan onlara sarı boylanacaqdım... Çəkildim öz güşəmə, səssizcə, xəlvəti. Görünmədin yad gözlərə ki, kökümü kəsərlər, mahnılarımız, musiqi alətlərimiz, xalçalarımız, mətbəximiz kimi məni də mənimsəyər, "xarıbülbül bizimdir",- deyərlər.

İllər ötdü. Nə yaxşı ki, dağlar, daşlar, dərələr bu yerlərdən günəşi də, baharı da qovmuşdu. Bu da bir təsəlliydi yaralı qəlbimə. Öz güşəmdə gözləməyə təsəllimdi. Gözləyirdim, ürəyimdə təşnəm ilə, yurddaşımın səsinə, nəfəsinə həsrət ilə gözləyirdim. Bilirdim ki, bir gün onlar gələcəklər, məni yenidən əzizləyəcəklər...

Dörd il əvvəl, payız lap yenicə bu ellərin onsuz da payız ömrünə öz vaxtı ilə gəlmişdi. Cəmi 7 gündü gəlmişdi. 7 rəqəminin möcüzəsini eşitmişdim, görməmişdim. Payızın 7-ci günündəcə mən o doğma nəfəsləri hiss etdim. Bağrımdakı ayaq səsləri doğmaydı, çox doğma. 28 ildən sonra mən ana dilimdə sözlər duydum. Vətən, Torpaq, Bayraq sözlərini eşitdim. Dağlı bağrım torpağın altında dağa döndü. Qayıtmışdılar onlar, tam yəqin ki, qayıtmışlar... Payızıma bircə anda bahar gəldi. Gözlərimdə şimşək çaxdı, ələndi yağış gözümdən. Axı mənim doğmam gəlmişdi...

Qarabağın qərinəlik sükutunu dağıdan ordum gəlmişdi. Harayıma 90-larda Qarabağın qarabəxtli günlərində şəhid olan ataların oğluğum o üç rəng-mavi, qırmızı, yaşıl gözlərimi oxşadı, bayrağım rəngindən rəng verdi mənə. İlhamlandım, torpaq altından boylandım. Gördüm ki, şəhidim payızımı bahar edib. Qarabağa al qanıyla 30 ilin suyun verib. Şəhidlərim həyatını yerə verib, əbədiyyət məkanına-göylərə ucalıb. Qarabağın 30 illik payızını yaz edib. Kədərim başdan aşsa da, fərəhləndim. "Oğul torpaq üçün doğulur",- dedim. Qoy torpaqlar yağıda qalmasın, axı o namus, ardı, şərəfdi. Bu şərəfçün şəhid olmaq ölmək deyil, yaşamaqdır.

Payızıma bahar gəldi. Dörd bir yanım çiçəkləndi. Qarabağın azad səsi nəğmə olub qulağımda çingildədi. Payızdaca çiçək açdım. 30 il sonra torpaqdan boy qaldırıb Qarabağa doğan günəşə baxdım. Minlərlə şəhidimin rəmzinə çevrildim. Ölkəm məndən don biçib əyinbaşını bəzədi. Sinə üstə gəzdirdilər məni, əzizləyib, oxşadılar. Adıma festival qurdular. 30 illik hicranıma vüsal çələngi taxdılar. Rəqs elədim festivalda doğma dildə mahnılarla, sevincim qalxdı dağlara, dumanı yardı, "Şuşa azaddır" hayqırdı. Cıdır düzündə adım düşmədi dillərdən. Qürur duydum, fəxr etdim ki, bu millətə məxsusam...

İki il öncə məni deyib tək ölkəmdən yox, dünyadan da qonaqlar gəldi hüsnümə. Mən beynəlxalq bir festivalın adı oldum. Azad Şuşanın adını bütün dünyaya tanıtdım.

İndi hər kəs tez-tez məni görmək, hüsnümə tamaşa etməyə gəlir. Haqqımda rəvayətləri dinləməyə, öyrənməyə gəlirlər. Dörd ildir, sonsuz sevinc içindəyəm. Novrağımçün orduma, sərkərdəmə, şəhidimə, qazimə minnətdaram. Var olsun belə Vətən, var olsun müzəffər sərkərdə, əyilməz, qüdrətli əsgər. Qoy ətrim onların ömrünə hər zaman bahar təravəti çiləsin.

Həqiqətən də kiminin əvvəli, kiminin sonu. Nə xoşbəxt bir sonum varmış...

***Mətanət Məmmədova***

# Heydər Əliyevin adı Azərbaycan və dünya tarixinə həkk olunub

**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin adı onlarla əlamətdar hadisə ilə Azərbaycan və dünya tarixinə qızıl hərflərlə yazılmışdır. Onun Azərbaycana qayıtması ilə müstəqil dövlətin siyasətinin və iqtisadiyyatının formalaşması dövrü başlamışdır. Ulu öndərin həmin dövrdə qəbul etdiyi qərarlar zaman keçdikcə bütün dünya birliyi üçün xüsusi əhəmiyyət kəsb edən bir çox regional nəqliyyat və enerji layihələrinin əsasını təşkil etdi. İstehsalın bərpası, ölkədə maliyyə vəziyyətinin yaxşılaşdırılması, investisiyaların cəlb edilməsi üçün hazırladığı anti-böhran proqramı ölkəmizin çiçəklənməsinə gətirib çıxardı.**

Təcrübəli strateq olan Heydər Əliyev Ermənistanla Azərbaycan arasında davam edən müharibənin o dövr üçün real vəziyyətini nəzərə alaraq düzgün mövqe tutmuş və 1994-cü ildə Azərbaycan ərazisinin 20 faizinin işğalına görə məsuliyyət daşıyan qonşu Ermənistanla atəşkəs imzalamışdır. Heydər Əliyev bu müdrik siyasi qərarı ilə daha çox qan tökülməsinin qarşısını ala, ölkədə sabitliyin yaradılmasına, hərbi sahədə əsaslı dəyişikliklərin aparılmasına münbit şərait yarada bildi. Zaman keçdikcə Heydər Əliyevin müstəqil və sabit dövlət quruculuğu istiqamətində atdığı addımlar nəticəsində Azərbaycanın dövlətçilik maraqlarının keşiyində durmağa qadir Milli Ordu formalaşdı.

Həmin dövrdə Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Ümummilli liderin qəbul etdiyi mühüm qərarlardan biri də vətənpərvərlik və vətənə məhəbbət ruhunda tərbiyə olunan çoxmillətli cəmiyyətin formalaşdırılması olmuşdur. Heydər Əliyev çox gözəl başa düşürdü ki, xalqın birliyi həqiqi suveren dövlətin inkişafının əsas şərtlərindən biridir, sülhün, firavanlığın və təhlükəsizliyin təminatıdır. O, haqlı olaraq multikulturalizm siyasətini Azərbaycan cəmiyyətinin mühüm hissəsi hesab edirdi. Bu siyasət ölkədə tolerantlıq və multikulturalizm ənənələrinin tezliklə bərpasını təmin etdi.





*Anastasia Lavrina*
*YAP Gənclər Birliyinin üzvü*

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft strategiyasının uğurla həyata keçirilməsinə başlanıldı. Müqaviləyə 8 ölkədən 13 ən böyük neft şirkəti qatılmışdır. Ümummilli lider çoxvektorlu xarici siyasət prinsiplərini nəzərə almaqla, ilk növbədə öz xalqının mənafeyini rəhbər tutaraq, dünyanın bütün güc mərkəzləri ilə qarşılıqlı faydalı əsasda əlaqələrinin kişaf etdirilməsini prioritet vəzifə kimi qarşısına məqsəd qoymuşdu. Bakı-Tbilisi-Ceyhan və "Əsrin müqaviləsi" kimi layihələr Azərbaycanın və bütün Cənubi Qafqaz regionunun geosiyasi əhəmiyyətini artırmışdır.

Heydər Əliyevin son dərəcə gərgin və çətin şəraitdə keçən məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan dünya iqtisadi və siyasi birliyinə dinamik şəkildə inteqrasiya etdi. Düşünülmüş diplomatiya və praqmatik xarici siyasət sayəsində bütün türkdilli dövlətlərlə, xüsusilə Türkiyə ilə sıx dostluq əlaqələri qurulmuş, müstəqil Azərbaycanın milli maraqları nəzərə alınmaqla Rusiya, ABŞ, Avropa ölkələri ilə əməkdaşlıq formalaşdırılmışdır.

Heydər Əliyev Rusiya ilə dostluq münasibətlərinin qurulmasında, iki ölkə arasında strateji tərəfdaşlığın əsaslarının qoyulmasında mühüm rol oynamışdır. Odövrdə ikitərəfli münasibətlərin hüquqi əsasını təşkil edən əsas sənəd 1997-ci il iyulun 3-də imzalanmış Dostluq, Əməkdaşlıq və Qarşılıqlı TəhlükəsizlikMüqaviləsi idi. Həmin ilin avqustunda Prezident Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri zamanı imzaladığı "Amerika-Azərbaycan münasibətləri haqqında" birgə bəyanatda Azərbaycan Respublikası ABŞ-ın strateji tərəfdaşı elan edildi.

Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi, ölkənin inteqrasiya proseslərində iştirakı ilə sürətlə möhkəmlənməyə başladı. Heydər Əliyev təkcə prezidentliyinin birinci dövründə 33 ölkəyə səfər etmiş, 232 beynəlxalq tədbirdə iştirak etmişdir. Ölkəmiz tədricən qlobal və regional təhlükəsizlik sistemlərinin mühüm iştirakçısı kimi özünü göstərməyə başlamışdır.

Beləliklə, Heydər Əliyevin düşünülmüş çoxvektorlu xarici siyasəti nisbətən gənc müstəqil dövlətin milli maraqlarının qorunmasında müstəsna rol oynamışdır. 2004-cü ildə bütün həyatını vətənin və Azərbaycan xalqının rifahına xidmətə həsr etmiş Ulu öndərin xatirəsini əbədiləşdirmək üçün Heydər Əliyev Fondu yaradılmışdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond 20 il ərzində bir çox sahələrdə böyük işlər görüb, mədəniyyət və təhsil sahəsində bir çox layihələr, eləcə də sosial əhəmiyyətli xeyriyyə proqramları həyata keçirmişdir. Heydər Əliyev Fondu uşaqların, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhid övladlarının problemlərinin həllinə xüsusi diqqət yetirir. Azərbaycan mədəniyyətinin və tarixinin geniş təbliği, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması ilə bağlı fəal tədbirlər həyata keçirilir.

İlham Əliyev dövlət başçısı seçildiyi ilk gündən Ulu öndərin siyasi kursunu - demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini inamla davam etdirir. Heydər Əliyevin ən böyük arzusu Qarabağın erməni işğalından azad edilməsi, ölkənin ərazi bütövlüyünün təmin edilməsi idi. Heydər Əliyevin arzusunu onun siyasi kursunun davamçısı İlham Əliyev reallaşdırdı. Onun komandanlığı ilə rəşadətli Azərbaycan ordusu 2020-ci ilin payızında 44 günlük Vətən Müharibəsi zamanı ölkəmizin tarixi torpaqlarını erməni işğalından azad etdi. Ümummilli liderin istədiyi kimi çoxmillətli Azərbaycan xalqı vahid cəbhə altında bir yumruq kimi birləşdi. Bütün etnik azlıqların nümayəndələri çiyin-çiyinə vətənin müdafiəsinə qalxaraq Azərbaycan xalqının gücünü və birliyini döyüş meydanında sübut etdilər. 2023-cü ilin sentyabrında cəmi 23 saat davam edən lokal antiterror tədbirləri zamanı Azərbaycanın tam suverenliyi bərpa olundu. Azərbaycanın Qarabağ bölgəsində əvvəllər fəaliyyət göstərən qanunsuz separatçı rejimin qalıqları silahı yerə qoymağa məcbur edildi. Bu gün Azərbaycan bayrağı respublikanın bütün rəsmi dövlət sərhədləri boyunca dalğalanır.




2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildikdən sonra Prezident İlham Əliyev Ümummilli liderin məzarını ziyarət edərək, "Atamın vəsiyyətini yerinə yetirdim" deyə fəxrlə demişdir. Azərbaycan keçmiş SSRİ məkanında dondurulmuş münaqişələrin olduğu dövlətlər arasında ilk olaraq öz ərazi bütövlüyünü, tarixi və siyasi ədaləti bərpa edərək Qarabağın Azərbaycan olduğunu bütün dünyaya sübut etdi! Ümummilli liderin siyasi iradəsi yerinə yetirildi. Bu gün Heydər Əliyevin parlaq xatirəsi Azərbaycan xalqının qəlbində əbədi olaraq yaşayır və yaşayacaqdır.

# Yevgeni Mixaylov: "İrəvanın siyasəti göründüyündən də hiyləgərdir"

"İndi o, "bir addım irəli, iki addım geri" prinsipi ilə fəaliyyət göstərir, amma Azərbaycanın Ermənistanla diplomatik qarşıdurmada qalib gəlməkdə davam etdiyi göz qabağındadır"







Cənubi Qafqaz Ölkələri üzrə Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov "Moskva-Baku" portalına müsahibəsində Ermənistanda müxalifətin İrəvanla Bakı arasında sülh prosesini pozmaq cəhdlərini, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Qazaxıstanın Almatı şəhərində keçiriləcək görüşünü, eləcə də qarşıdan gələn hadisələri şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Aprelin 19-dan Ermənistanda müxalifət Azərbaycanla sərhədin delimitasiyası prosesini pozmağa cəhdlər edir. Delimitasiyanın başladığı Tavuş vilayətində, eləcə də respublikanın digər bölgələrində vaxtaşırı etiraz aksiyaları keçirilir. Şənbə günü müxalifət Tavuşdan yürüşə başlayıb və sülh prosesini pozmağa cəhd etmək üçün mayın 9-da İrəvana gəlmək niyyətindədir. Bu nə dərəcədə ciddidir?***

- Məncə, Ermənistan müxalifətinin sərhədin delimitasiyası və demarkasiyasını, sülh prosesini pozmaq cəhdləri heç bir nəticə verməyəcək. O, əhalini küçələrə çıxara bilmir.

Bəli, Ermənistanda revanşist əhval-ruhiyyə hələ də güclüdür. Amma bu cür radikal əhval-ruhiyyə ilə belə müxalifət, ümumilikdə, Nikol Paşinyanın hakimiyyətinin 6 ili ərzində heç vaxt onun devrilməsinə və ya elan etdiyi başqa məqsədlərə nail ola bilməyib. Bəli, bir neçə il əvvəl çoxsaylı mitinqlərin dövrləri olub. Amma onlar da heç nəyə nail olmadılar. Paşinyan olduğu kimi hakimiyyətdə də qalır. İnsanlar isə kütləvi şəkildə mitinqlərə çıxmağı dayandırdılar. Bunu müxalifətin özü də dəfələrlə etiraf edib.

İndi biz görürük ki, "Ermənistan" fraksiyasının müxalif deputatlarından, ayrı-ayrı müxalifət hərəkatlarının nümayəndələrindən ibarət çox da böyük olmayan bir qrup insan necə yürüş şəklində tamaşa təşkil edir. Bu dəfə müxalifət "etiraz yürüşünün" başına Tavuş arxiyepiskopunu qoyaraq, dindən alət kimi istifadə etmək qərarına gəldi. Yeni yaradılmış "qəhrəman" daha çox insanı cəlb etmək üçün artıq yürüşü az qala Xaç yürüşü ilə müqayisə edib. Müxalifətin siyasi strateqləri öz medialarını bu personajın fotoşəkilləri ilə doldurdular: o, əlini belə qaldırdı, "öz xalqına" belə səsləndi. Arxiyepiskopun özü bildirib ki, o, katalikosun xeyir-duası ilə yürüş təşkil edib və indi ucadan təxribatçı şüarlarla çıxış edir. Deyirlər ki, ermənilər ayağa qalxmalı, əraziləri təslim etmək damğasını götürməlidir. Onu özünü təmizləmə yolu adlandırır. Amma əslində bu, radikallıqdan başqa bir şey deyil.

Müxalifətin indi kilsə pərdəsi altında etməyə çalışdığı heç də Ermənistanın xeyrinə deyil, onun inkişaf etmək istəməyən, qonşuları ilə konstruktiv, faydalı qarşılıqlı münasibətlər qurmaq istəməyən işğalçı dövlət olaraq qalması ilə bağlıdır.

Xalq artıq həmin "Qarabağ klanı"nı qəbul etmir. Və Tavuşdan İrəvana gedən bu "yürüş" bir daha göstərəcək ki, xalq özünü çoxdan gözdən salan "Qarabağ klanı"nın təmsil etdiyi müxalifəti dəstəkləmir. Millətçilik ideyasına görə onlar Ermənistan xalqını çaşdırdılar və onilliklər ərzində qonşusu ilə qanlı münaqişəyə səbəb oldular. Bu müddət ərzində xalq müxalifətin əsl üzünü gördü və daha belə liderlərlə yaşamaq istəmir.

***- Mayın 10-da Almatıda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi planlaşdırılır. Danışıqlar neytral ərazidə və Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyasının başlanması fonunda baş tutacaq. Almatı görüşünün perspektivləri necədir?***

- Təəssüf ki, mən yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması perspektivlərinə şübhə ilə yanaşıram. Paşinyan çoxdan ölkəsi üçün yeni sülh və inkişaf səhifəsi açan lider kimi tarixə düşmək imkanı əldə edib. Amma təəssüf edirəm ki, biz Paşinyanın hakimiyyətdə olduğu 6 il ərzində bu ehtimaldan danışırıq. Baş nazir həqiqətən də bəzi dinc addımlar atır. Və bu yaxşıdır. Amma problem ondadır ki, bu oyunun bir hissəsidir. Paşinyan Ermənistanda hakimiyyətə xarici qüvvələr tərəfindən gətirilib. Onun Azərbaycanda etdiyi hər şey Zaqafqaziyada üçüncü qüvvələrin müəyyən oyunudur. İrəvan, tutaq ki, vaxtaşırı Azərbaycanı bu və ya digər sülhsevər addımlarla "rahatlaşdırmalıdır". Paşinyan öz siyasəti çərçivəsində ordunu yenidən silahlandırmağa və öz ərazisinə NATO qüvvələrini gətirməyə nail olmalıdır. Onun hakimiyyətdə saxlanmasının əsas məqsədi Rusiyanı regiondan sıxışdırıb çıxarmaqdır. Əslində Azərbaycan Respublikasının Ermənistandan istədiyi hər şeyi İrəvan çoxdan etməli idi. Eynilə də delimitasiyanı.

Ona görə də məncə, biz yaxın vaxtlarda Bakı ilə İrəvan arasında sülh müqaviləsi görməyəcəyik. Çünki rəsmi İrəvanın siyasəti göründüyündən də hiyləgərdir. İndi o, bir addım irəli, iki addım geri prinsipi ilə fəaliyyət göstərir. Yeni münaqişələrin ssenarisi mütləq mümkündür, çünki Ermənistanda Qərb qüvvələrinin mövcudluğu bəlli səbəbdən artır.

Ermənistandan səmimi sülh istəyi yoxdur. Deyilənlərin hamısı sadəcə taktikadır. Əbəs yerə deyil ki, biz Qərb platformalarında Ermənistanın hakimiyyət təmsilçilərindən Azərbaycanla bağlı tənqidləri, heç bir əsası olmayan tənqidləri eşitməkdə davam edirik.

Ermənistan öz öhdəliklərini yerinə yetirməkdən heç vaxt "zərər çəkməyib". Üstəlik, bu gün onun zəif dövləti var. O, Rusiyanın simasında özünün təhlükəsizlik və iqtisadi tərəfdaşının qarantına xəyanət edir, eyni zamanda iki kresloda oturmağa davam edir- Aİ-də qalmaqla bundan ciddi iqtisadi fayda əldə etmək və Qərbin maraqlarına xidmət etmək.

Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Almatı görüşünə gəlincə, biz bu gün Ermənistan xarici işlər nazirindən eşitdik ki, o, azərbaycanlı həmkarı ilə uzun illər Zəngəzur dəhlizinin həyata keçirilməsinə mane olan nəqliyyat kommunikasiyalarının açılması imkanlarını müzakirə etməyi gözləyir.

Eyni zamanda, bu gün sülh prosesində hansısa mərhələləri nəzərdən keçirsək, Azərbaycanın Ermənistanla diplomatik qarşıdurmada qalib gəlməkdə davam etdiyi göz qabağındadır. Bakı delimitasiya prosesinin başlanmasına nail oldu; İlham Əliyev əla diplomatdır. Zaqafqaziyada bir çox addımlar Bakı ilə Moskvanın razılığı əsasında həyata keçirilir. Almatıda keçiriləcək görüş sülhə doğru daha bir addım olacaq. Ancaq mən ondan hər hansı xüsusi irəliləyiş gözləməzdim.

Əgər Ermənistan keçmiş mövzusunun sonsuz istismarından əl çəkib, indi və gələcəklə yaşamağa başlasaydı, ölkə inkişaf etməyə başlayardı. Bu yolu tutmaq və dövlətçiliyini tam itirməmək üçün Ermənistan Azərbaycanla sülh müqaviləsi bağlamalıdır. Ermənistan rəhbərliyi arasında sağlam düşüncə və həqiqətən sülhsevər yanaşma üstünlük təşkil etsəydi, çox yaxşı olardı. Əminəm ki, Moskva və Bakı bundan sonra da bunu asanlaşdırmaq üçün mümkün olan hər şeyi edəcəklər.

***Tərcümə - Elçin Bayramlı***



**Elçin Bayramlı**

# Mən niyə xərçəng oldum ?!

**- Xanım, bütün analizlərin və müayinələrin cavablarını diqqətlə nəzərdən keçirdik. Təəssüflə deməliyəm ki, sizdə 3-cü mərhələyədək inkişaf etmiş xərçəng xəstəliyi aşkar olunub. 40 yaşa çatmamış biri üçün bu nadir haldır.**

- Niyə doktor, bu nədən yaranmış ola bilər?

- Çox səbəblər ola bilər. Xərçəng, sadə dillə desək, orqanizmin təbii bioloji normalarının kobud pozulmasının nəticəsidir. Burada qidalanma, kimyəvi vasitələrdən geniş istifadə, ekologiya, stress, şüalanma, qeyri-aktiv həyat tərzi kimi çox sayda faktorların rolu olur. Nəticədə orqanizmin təbii balansı pozulur, hüceyrələr öz funksiyasını yerinə yetirə bilmir və nəzarətsiz çoxalmağa başlayırlar.

- Doktor, mən hər şeyi düz eləmişəm, məndə niyə xərçəng yaransın ki? Baxın, hər zaman qidalanmama fikir vermişəm, meyvə tərəvəz alanda həmişə üstündə xarici yarlıkları olan parlaq, gözəl görünüşlü olanları seçib almışam, antisanitar şəraitdə olan kənd nehrə yağlarını, pendirini, qatığını yox, mağazalardan satılan məhsulları almışam, çox vaxt bahalı restoranlarda, mak donaldsda və sair brendlərdə yemək yemişəm. Broyler toyuğunun ən bahalısını almışam. Bazarlardakı kəndçi-kündçünün satdığı məhsulları yox, marketlərdə səliqəli və bəzəkli paketlərdə olan qida məhsullarını almışam. Camaat şorba və ya ucuz tərəvəz yeməkləri bişirəndə mən çoxlu ət və kolbasa alaraq qızartma yeməklər yemişəm. Evimdə mikrodalğalı sobanın ən bahalısını qoymuşam.

Bəzi xəsislər ot-ələf çayı içəndə mən 1 dəqiqəyə dəm alan paket çaylarından istifadə eləmişəm. Eləsi var ki, evdə kompot bişirir , ayran düzəldir içir. Nə ehtiyac var ki, mağazada satırlar də hamısını. Xəsisliklərindən evdə bişirirlər yeməyi. İndiki zamanda bu nə geridəqalmışlıqdır siz Allah? Zəng edirsən kafedən gətirirlər də hazır şəkildə.

Bədənimə də yaxşı qulluq eləmişəm. Tez-tez kimyəvi gigiyenik vasitələrdən istifadə etmişəm, saçlarımı hər həftə boyamışam, həftədə 2 dəfə gözəllik salonlarında özümü gözəlləşdirmişəm. Əllərimi antibakterial sabunlarla yumuşam. Ən bahalı kosmetik vasitələrdən və ətirlərdən mütamadi istifadə eləmişəm.

Camaat piyada gəzəndə mən ən yaxın yerə də maşınla getmişəm, işim də oturaqdır və çox rahatdır. Evdə də, işdə də həm kondisioner var, həm də istilik sistemi. Yay-qış 25 dərəcə tempraturda yaşamışam, nə qışda üşümüşəm, nə yayda tərləmişəm. Tam komfort bir həyat yaşamışam. Həmişə isti otaqda yatmışam. Düzdür, gecə tiktokda zadda çox vaxt keçirib saat 3-ə 4-ə qədər yatmırdım, amma əvəzində səhər də gec qalxırdım. Telefonum da həmişə açıq şəkildə yanımda olub ki, birdən gecə mesaj, bildiriş zad gələr, xəbərim olsun.

Düzdür, şəhərdə hava təmiz deyil, zərərlidir, buna görə də daim qapı pəncərəni bağlı saxlamışam ki zərərli hava evə girməsin. Evi tez-tez xüsusi dərmanlarla kimyəvi təmizləmə etmişəm. Hətta idmana da getmişəm. Özü də bəzi çuşkalar kimi açıq havada idmanla məşğul olmamışam, qapalı salonlarda trenajorlarda məşğul olmuşam. Sonra da energetik içkilər qəbul eləmişəm ki, itirdiyim enerji yerinə gəlsin.

Daim şirniyyat yemişəm ki, əhvalım xoş olsun. Düzdür, daha çox pul qazanmaq və vəzifəmin artması üçün çox gərgin rejimdə işləyirdim və tez-tez stress keçirirdim, amma bundan nə zərər olasıdı ki, əsas odur daha çox pul qazanasan. Adamın pulu çox olanda sağlam olur. Düzdür, işimlə bağlı bütün günü mobil telefonla danışmalı olurdum, amma bunun heç bir zərəri yoxdur.

Camaat gedib çöldə, meşədə, kənddə istirahət edəndə, mən böyük şəhərlərdə qapalı əyləncə mərkəzlərində istirahət eləmişəm. Arada bir evdəkilər məni zorla dənizə zada aparanda bütün bədənimə krem çəkmişəm ki, Günəş şüaları dərimə dəyməsin.

Bəzi xəsis qadınlar üzlərinə adi krem çəkib ortaya çıxanda mən fərqli növlərdə olan kosmetik vasitələr ilə üstü-üstə 4 sloy makiyaj eləmişəm ki, dərim sağlam qalsın.

Tez-tez arıqladıcı dərmanlar içmişəm ki, bədən formam ideal olsun. Arada bir botoks etdirmişəm, bəzi yerlərimə silikon qoydurmuşam ki, maraqlı görünsün. Hələ çox şeylər var ki, başınızı ağrıtmayım deyə demirəm.

Gördüyünüz kimi, mən hər şeyi düz eləmişəm, həmişə komfort şəraitdə yaşamışam. Doktor, bəs mən niyə xərçəng oldum ki?!

# İrəvana səlib yürüşü

***Ermənistan tərəfindən Azərbaycana təhvil veriləcək Qazax rayonunun Xeyrimli kəndində sərhədin müəyyənləşməsi üzrə işlər başlayıb. Kəndə geodeziyaçılar gəlib. Kəndlilər ərazidə gərginlik yaratmağa, yolu bağlamağa, əlavə maneələr törətməyə çalışsalar da polis buna imkan verməyib. Azərbaycanla Ermənistan arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında 2024-cü il mayın 6-dək 40 sərhəd dirəyi quraşdırılıb. İki dövlətin ekspert qruplarının işi davam edir.***




Ermənistan və Azərbaycanın xarici işlər nazirləri Ararat Mirzoyan və Ceyhun Bayramov mayın 10-da Astanada görüşəcək və sülh müqaviləsinin müzakirəsini davam etdirəcəklər. Onları Qazaxıstana Respublika Prezidenti Qasım-Jomart Tokayev dəvət edib və o, Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün MDB-nin məqsəd və prinsiplərinə dair Alma-Ata Bəyannaməsinin əhəmiyyətini vurğulayıb. Tərəflər nəinki diplomatik müstəvidə, hətta quruda da irəliləyişə nail ola bildilər, sərhədin ən azı 10 kilometrini delimitasiya ediblər. Ermənistanda isə hamı buna sevinmir.





Narazıların lideri Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan olub. Aprelin əvvəlindən o, Kirants kəndində olub və orada Azərbaycanla sərhədin yaxınlaşmasından qorxan yerli sakinləri öz ətrafına toplaya bilib. Onu Ermənistan müxalifətinin, o cümlədən 2020-ci ildən hökuməti devirməyə cəhd edən parlamentdəki "Hayastan" və "Mənim namusum var" fraksiyalarının nümayəndələri də dəstəkləyir.





Mayın əvvəlində Ermənistan hüquq-mühafizə orqanları sərhədlərin delimitasiyasını davam etdirmək üçün Kirantsda etiraz aksiyalarını yatırıb. Sonra Qalstanyan İrəvana qarşı kampaniyaya başladığını elan edib. "Biz insanlar üçün körpü olmalıyıq ki, məbəd küçəni aşsın, həqiqət isə yalandır. Bu gün əsl ruh qalib gəlməlidir... Mənəvi Ermənistan yeni Ermənistanı məğlub edəcək. Real Ermənistan saxta facebook Ermənistanı məğlub etməlidir", - keşiş deyib. Əslində, o, 2018-ci ildə baş verən məxməri inqilab hadisələrini xatırlayır, o zaman baş nazir Nikol Paşinyanın əleyhdarlarının fikrincə, qalib gələn xalq deyil, onun "küçə" adlandırdıqları ən pis nümayəndələri olub.

Arxiyepiskop kilsə rəhbərinin xeyir-duası ilə hərəkət etdiyini vurğulayıb: "Müqəddəs anamız həmişə bizimlədir. Biz Patriarx həzrətlərinin xeyir-duası olmadan hərəkət etmirik. Erməni patriarxı bizim atamızdır, bizə xeyir-dua verir və yol göstərir".

Mayın 4-dən 5-ə kimi Qalstanyan və yoldaşları Kirantsdan Sevana qədər piyada gedə, İcevan və Dilicanı geridə qoya biliblər. Bundan xəbər tutan Şirak yeparxiyasının primatı Mikael Adjapaxyan həmkarına dəstək olmaq qərarına gəlib. Qeyd edib ki, "arxiyepiskop Baqrat yalanlara, hiylələrə qarşı durmaq, ictimai və daimi alçaldılmalara qarşı durmaq, məğlubiyyətdən bayraq kimi istifadə etmək və diz üstə yaşamaq üçün bu hərəkatın rəhbərliyini öz üzərinə götürdü. Mənim müqəddəs qardaşım mənim tam dəstəyimdir". Nəticədə mayın 8-də daha bir müxalifətçi koloniyası Şirakdan İrəvana yola düşəcək. Onlar Abovyanda Qalstanyanın dəstəsi ilə görüşəcək və mayın 9-da günorta birlikdə paytaxta daxil olacaqlar.

Məsələ bundadır ki, ermənilər budəfəki yürüşün finiş gününü təsadüfən mayın 9-na təyin etməyiblər. Uzun müddət idi ki, 9 mayda Ermənistan təkcə Böyük Vətən Müharibəsində Qələbə Gününü deyil, həm də "Dağlıq Qarabağ Respublikası"nın "Müdafiə Ordusu"nun yaradılması gününü qeyd edib. Deməli, Paşinyanın rəqibləri üçün bu tarix məna ilə doludur. Məsələn finiş mayın 8-də də ola bilərdi, amma bu tarixin ermənilər üçün artıq heç bir əhəmiyyəti qalmayıb. "Şuşanın azad edilməsi"ni qeyd edənlər bundan sonra Şuşadan qovulduqları günü xatırlamalı olacaqlar. Bütün zamanlarda işğalçının taleyi bu sonluqla bitir.

Son zamanlar müxalifətin fəaliyyəti o qədər də nəzərə çarpmır, lakin kilsənin etiraz hərəkatında fəal iştirakı onlara yeni nəfəs verib. Bununla belə, baş nazir Nikol Paşinyan aprelin 10-da, bir yerdə yaşaya bilməyən və bir-birinə təhlükə yarada bilməyən "tarixi" və "real" Ermənistanın toqquşmasını elan edərkən bunu proqnozlaşdırmışdı. Xüsusilə, onun fikrincə, birincisi milli miflərə arxalanaraq qonşuları ilə düşmənçilik etmək istəyir, ikincisi isə daha yeni müharibədən qorxmamaq və sakit inkişaf etmək üçün onlarla anlaşmağa ümid edir. Respublikanın ən mühafizəkar strukturlarından biri olan kilsənin bu müqayisəsi təbii ki, xoşuna gəlmədiyindən "məğlubiyyətlərin arxasınca düşməmək, milli maraqları təslim etməmək üçün" erməniləri birləşməyə çağırıb.

Kilsə nümayəndələrinin etiraz aksiyalarında iştirakı Ermənistan hakimiyyəti üçün çox çətin daxili siyasi vəziyyət yaradır. Kilsə, yəqin ki, ictimai dəstək alan və ölkə rəhbərliyinə qarşı çıxan sonuncu ciddi qurum olaraq qalır. "İndiki etirazın əsası İrəvanın Bakının istənilən tələbini yerinə yetirməyə, öz əhalisinin təhlükəsizliyinə və ya ərazilərin qaytarılmasına zəmanət verməndən hazır olması ilə bağlı olub. Etirazçıların əsas tələbi hazırkı hakimiyyətin istefasıdır. Cəmiyyətdə belə bir fikir var ki, Paşinyan və komandası öz öhdəliklərinin öhdəsindən gəlmir", - deyə siyasi ekspert Xalatyan əmin olduğunu bildirib.

Rusiya-Ermənistan Universitetinin dosenti Anton Evstratov hesab edir ki, İrəvana gələn kimi etirazçılar Paşinyanın istefasını tələb edəcəklər. "Onlar indiki hakimiyyəti devirmək, sonra isə hökumətin Azərbaycana vermək qərarına gəldiyi həmin əraziləri qaytarmaq istəyirlər. Bunun dəqiq necə olacağını heç kim demir", - Evstratov bildirib.

Buna baxmayaraq, o, fikir ayrılığı olanların planlarının növbəti dəfə puça çıxacağına inanır. "Ümumiyyətlə, vəziyyət dünyəvi müxalifətin buna gücü çatmadığı halda hakimiyyəti kilsənin əli ilə ələ keçirmək cəhdinə bənzəyir. Amma kilsənin populyarlığı o qədər də böyük deyil ki, etirazçılar amorf proqramını görməsin. Bundan əlavə, hərəkata Respublikaçılar Partiyasının və Çiçəklənən Ermənistanın nümayəndələri də qoşulublar ki, onlar ideyanı o qədər gözdən salıblar ki, bəziləri bunu Paşinyanın hiyləgər planı hesab edir", - Evstratov yekunlaşdırıb.

Öz növbəsində politoloq Mikael Zolyan qeyd edib ki, Paşinyanla kilsə arasında münasibətlər çoxdan gərgindir. Xüsusilə, 2018-ci il inqilabına qədər kilsənin ali iyerarxları ölkə rəhbərliyini, Qarabağ uğrunda ikinci müharibədən sonra isə eks-prezident Robert Köçəryanın rəhbərlik etdiyi müxalifəti dəstəkləyib. "İndiki tarixdə yalnız arxiyepiskopun etirazlarda şəxsi iştirakı prinsipcə yenidir. Bu, Ermənistan tarixində görünməmiş hadisədir. Lakin Qalstanyanın rəhbərliyi çətin ki, qüvvələr balansını kökündən dəyişsin. O, digər müxalifətçilərlə müsbət müqayisə edir, lakin ümumilikdə cəmiyyət kilsə iyerarxlarına kifayət qədər skeptik münasibət bəsləyir. Bir neçə həftə ərzində Ermənistanda qeyri-sabit dövr olacaq, lakin ölkə bunu artıq keçib. Etirazların hakimiyyət dəyişikliyinə və ya İrəvanın danışıqlarda mövqeyinin dəyişməsinə gətirib çıxaracağı ehtimalı azdır", - Zolyan hesab edir.

## Bu arada...

Ermənistanda revanşistlərlə kilsənin birlikdə həyata keçirdiyi "Tavuş hərəkatı" hakim komandada narahatlığa səbəb olub. Hazırda Ermənistanda hər an partlaya biləcək vəziyyət hökm sürür. "İravunk" nəşri mənbələrinə istinadən yazır ki, baş nazir Nikol Paşinyan öz komandasının da nəzarətdən çıxa biləcəyindən narahatdır. "Mənbənin sözlərinə görə, Paşinyanı küçə hərəkatından daha çox, öz komandası maraqlandırır. Çünki proseslərin inkişafında komandasının qarşı tərəfə keçməsi təhlükəsi var. Bunun qarşısını almaq üçün Paşinyan "etibarsız üzvlərlə" izahedici söhbətlərin aparılmasını tapşırıb. Buna baxmayaraq, hakim komandanın bəzi üzvləri müxalifətlə gizli əlaqələrin qurulması haqqında düşünməyə başlayıb. Onlar istəyir ki, hakimiyyət çevrilişi olarsa, "Nikola qarşı çıxan qəhrəmana çevrilsinlər", - nəşr qeyd edir.

"Hraparak" nəşri iddia edir ki, hakim komandaya sosial şəbəkələrdə aktiv olmaqla bağlı tapşırıq verilib. "Bu tapşırıqlardan biri belədir ki, "Tavuş hərəkatı"nın arxasında Rusiyanın dayandığı, keşiş Qalstyanın Moskvanın adamı olduğu fikirləri yayılsın", - nəşr yazır. "Joxovurd" qəzeti isə yazır ki, baş verənlər Nikol Paşinyanın proqramını dəyişməsinə məcbur edib. Paşinyan bazar günü Karen Dəmirçiyan adına idman kompleksində futzal üzrə çempionlar liqasının final oyununda iştirak etməli idi. Lakin bundan imtina edib. Mənbələrimizin məlumatına görə, buna səbəb İrəvanda hökm sürən gərginlik və ictimai narazılıq dalğasıdır. Ermənistan mediasında yayılan məlumatlar İrəvanda xaosun gözlənildiyini deməyə əsas verir.

***V.VƏLİYEV***

# Azad və abad Qarabağ

## Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimiz dünyanın ən gözəl və səfalı məkanına çevriləcək

***Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılıb. 2024-cü ilin dövlət büdcəsində isə 4 milyard manat vəsait nəzərdə tutulub. Təsadüfi deyil ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitin həcmi ildən-ilə artırılır.***

Həyata keçirilən böyük layihələrin nəticəsi olaraq Qarabağda və Şərqi Zəngəzurda bərpa edilmiş yaşayış məntəqələrinin və daimi yaşamaq üçün bu yerlərə qayıdan məcburi köçkünlərin sayı sürətlə artmaqdadır. Tezliklə Böyük Qayıdış Proqramı çərçivəsində Şuşa, Xankəndi və Xocalı şəhərlərinə, həmçinin Xocalı rayonunun Malıbəyli kəndinə, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə də əhalinin köçürülməsinə başlanılacaq.

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilən Böyük Qayıdışla bağlı 2022-2026-cı illəri əhatə edən Dövlət Proqramı Qarabağ və Şərqi Zəngəzuru inkişafa, yüksək həyat tərzinə qovuşduracaq. Proqramın əsas məqsədi ilk beşillikdə 34 min 500 ailənin azad edilmiş ərazilərə köçürülməsini təmin etməkdir.













Qarabağ və Şərqi Zəngəzur regionunun dayanıqlı elektrik təchizatını təmin etmək, işğaldan azad edilən ərazilərdə "Azərenerji" tərəfindən tikilən onlarla su elektrik stansiyasında istehsal olunan enerjini ümumi sistemə ötürmək üçün "Cəbrayıl" enerji qovşağının istismara verilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, 330/110 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyası Cəbrayıl-Naxçıvan-Türkiyə, oradan isə Avropa enerji bazarlarına əlavə çıxış əldə edir və ixracı artırmaq imkanına malikdir. "Cəbrayıl" qovşaq yarımstansiyası və ikidövrəli olmaqla 132 kilometr məsafədə tikilən 330 kV-luq "Ağcabədi" yarımstansiyası müasir texnologiyalar əsasında tam yenidən qurulub. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin, "Holcim Azərbaycan" ASC, "Az-Tex-Import" MMC, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin tikintisi işğaldan azad olunmuş ərazilərin Azərbaycan iqtisadiyyatına inteqrasiyası istiqamətində atılan əhəmiyyətli addımlardır.

Ölkə Prezidenti İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisini "yaşıl enerji" zonası elan edib. Artıq sürətli quruculuq meydanına çevrilmiş bu ərazilərin bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi istiqamətində də konkret tədbirlər həyata keçirilir, xarici tərəfdaşlarla sazişlər imzalanır, yeni layihələr işlənib hazırlanır. Dövlət başçısının "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli sərəncamına uyğun olaraq Nazirlər Kabineti "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"nı təsdiq edib. Sözügedən sənədə uyğun olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl" texnologiyaların və enerji səmərəliliyin tətbiqi ilə yanaşı, bir çox ümumi enerji infrastrukturuna və sahənin inkişafına müsbət təsir edəcək tədbirlər nəzərdə tutulub. Bütövlükdə isə hökumətin bununla bağlı hazırladığı konsepsiyaya əsasən, həmin ərazilərdə istehlak olunan elektrik enerjisi yalnız bərpaolunan enerji mənbələrindən alınacaq. Hazırda "yaşıl enerji zonası"nın yaradılması çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, enerji səmərəliliyi tədbirləri, elektrik nəqliyyat vasitələrindən istifadə, tikililərin damlarında "yaşıl enerji" qurğularının (xüsusən də günəş panellərinin) quraşdırılması, həmçinin küçələrin və yolların işıqlandırılmasında günəş enerjisi əsaslı LED lampalardan istifadə, istilik, soyutma və isti su təchizatında bərpaolunan enerji texnologiyalarından istifadə, ağıllı enerji idarəetmə texnologiyalarının tətbiqi, tullantıların enerji məqsədli idarə edilməsi kimi "yaşıl" texnologiyaların tətbiqinin həyata keçirilməsi istiqamətində işlər davam etdirilir.

Təməli qoyulan sosial-infrastruktur obyektləri, inzibati binalar, xəstəxanalar, təhsil müəssisələri, peşə məktəbləri, parklar, məscidlər otuz il doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan keçmiş məcburi köçkünlərin rahat həyat şəraitinin təmin olunmasına xidmət edir. Ağalı, Talış kəndlərində yaşayışın bərpa edilməsi, Laçın şəhərinin mərkəzində quruculuq işlərinin demək olar ki, yekunlaşması, Zabux və Sus kəndlərində tikintinin intensiv şəkildə davam etdirilməsi Qarabağ və Şərqi Zəngəzurun bərpasının dövlətin həyata keçirdiyi siyasətdə ən prioritet məsələ olduğunu təsdiq edir.

"Azərbaycan Respublikasının işğaldan azad edilən ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına dair Tədbirlər Planı"na əsasən, 2026-cı ilədək ümumi uzunluğu 2264,5 kilometr təşkil edən 20 avtomobil yolu layihəsinin və Laçın rayonunda Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar qazma və torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, bu layihələrdən uzunluğu 28,5 kilometr olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu 2020-ci ildə, uzunluğu 101,5 kilometr təşkil edən Zəfər yolu 2021-ci ildə inşa edilib. 2022-ci ildə Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun (uzunluğu 22 kilometr, 2-3 hərəkət zolaqlı) tikintisi başa çatdırılıb. Ümumiyyətlə, Qarabağda icra olunan yol infrastrukturu layihələri tədbirlər planına uyğun olaraq 15 layihədən 11-nin icrası 2024-cü ildə, üç layihənin 2025-ci ildə, bir layihənin isə 2026-cı ildə başa çatdırılması nəzərdə tutulub. Cari ildə Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrud, Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi planlaşdırılıb. Bundan başqa, 2024-cü ildə Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazıdüzü-Ermənistan sərhədi, Horadiz-Tuğ-Azıx mağarası, Ağdam-Füzuli, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, İranla dövlət sərhədi avtomobil yolunun və Araz çayı üzərində avtomobil yolu körpülərinin tikilməsi də qərara alınıb. Yeri gəlmişkən, 2024-cü ildə bölgədə Ağdam-Əsgəran-Xocalı-Xankəndi-Şuşa (34 kilometr), Tərtər-Ağdərə (24,2 kilometr) və Füzuli-Xocavənd-Ağdam avtomobil yolunun (55,7 kilometr) avtomobil yollarının da yenidən qurulmasına start veriləcək. 2025-ci ildə isə Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Toğanalı-Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın avtomobil yollarının, 2026-cı ildə isə Ağdam şəhərinin daxili yollarının layihələndirilməsi və tikintisi işlərinin başa çatdırılması planlaşdırılır.

Qarabağ və Şərqi Zəngəzurun "hava qapıları" Füzuli, Zəngilan və Laçın beynəlxalq aeroportları isə bölgənin əhəmiyyətini artırmaqla yanaşı, Qarabağın və Şərqi Zəngəzurun gələcəkdə turizm potensialının artmasına imkan yaradacaq. Yenidənqurma və bərpa işləri başa çatdıqdan sonra bu əraziyə turist axınında hava limanlarının müstəsna rolu olacaq.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında indi quruculuq işləri ilə bərabər, kənd təsərrüfatının inkişafı geniş vüsət almışdır. Oraya qayıdan vətəndaşlar artıq bu imkanlardan istifadə edirlər. Eyni zamanda, ən müasir texnologiyaların tətbiqi nəticəsində orada həm taxılçılıq, həm meyvəçilik, bostançılıq, üzümçülük geniş vüsət alacaq. Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın ən gözəl yerlərindən biridir və kənd təsərrüfatı üçün yararlı torpaqların, su resurslarının - çayların, bulaqların, yaylaqların mövcudluğu həm heyvandarlıq, həm də bitkiçilik üzrə çox böyük imkanlar yaradır.

Azadlığına qovuşan yurd yerlərimizdə tarixiliklə müasirliyin vəhdətində həyata keçirilən bərpa-quruculuq işləri ermənilərin törətdikləri dağıntıların, vandallığın izlərini silir. Genişmiqyaslı layihələrin reallaşdırılması, əhalinin davamlı şəkildə yurd yerlərinə köçürülməsi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf etmiş bölgəyə çevrilməsinə şərait yaradır. Bir sözlə, Azərbaycan dövləti keçmiş məcburi köçkünlərin könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurda qayıdışını mühüm vəzifə kimi qarşıya qoyub. İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində görülən işlər getdikcə daha da sürətlənir, Böyük Qayıdış Proqramı icra olunur. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində işğaldan azad olunmuş bütün torpaqlarımız tezliklə gülüstana çevriləcək.

***Yaqut Ağaşahqızı***

# Qarabağın mehmanı bol olacaq

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti çərçivəsində hazırlanıb*



***Qarabağ işğaldan azad olunduğu gündən indiyədək istisnasız olaraq hər gün yenidənquruculuq, abadlaşdırma işləri davam etdirilib. Xarabalığa çevrilən cənnətməkan kəndlər, şəhərlər yenidən, başdan yaradılıb, binalar, məktəblər, bağçalar, iaşə obyektləri, su anbarları, elektrik stansiyaları inşa edilib. Otellər, qonaq evləri həm yerli, həm də xarici qonaqlar ilə dolub-boşalır, regionun turizm potensialı əmin əllərdə sürətlə inkişaf edir. Yaxın illərdə Qarabağ mehmanxanalarının mehmanı bol olacaq, bu, artıq məlumdur.***

Güləbird Su-Elektrik Stansiyası, 7 yarımtsansiya, Suqovuşan və Talışa gedən yollar, Zəfər yolu, Füzuli Beynəlxalq Hava Limanı, Ağalıda ”Ağıllı kənd” kimi möhtəşəm layihələr qarabağda görülən ilk işlər oldu. Şuşa azad edilən kimi su və elektrik təchizatı təmin edildi, Bülbülün ev-muzeyi, Molla Pənah Vaqifin məqbərəsi, o cümlədən büstü, Üzeyir bəy Hacıbəylinin heykəli, Xarıbülbül və Qarabağ hotellərinin açılışı Qarabağda görüləcək işlərin müjdəçisi oldu. Qarabağda həyat qaynadı, hər gün yeni tikililər, yollar, meydanlar inşa edildi, 30 ildir buz tutmuş həyat öz normal axarına qayıtdı.

Şuşa işğaldan azad edildikdən sonra şəhərdə qısa müddətdə ”Qarabağ”, ”Xarıbülbül” otelləri, Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışı olub və artıq ”Yasəmən” oteli də şəhərin tarixi mənzərəsinə daha bir gözəllik qatmaqla qonaqların istifadəsinə verilib.

2021-ci ildə Şuşa şəhərində ”Qarabağ” hotelinin açılışı oldu, 1980-cı ildə inşa edilən hotelin binası 1992-ci ilin mayında Şuşa şəhərinin işğalı nəticəsində öz fəaliyyətini dayandırmışdı və baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşmüşdü. Lakin Şuşa işğaldan azad edilən kimi yenidənqurma və bərpa işləri çərçivəsində hotel dünya standartlarına cavab verəcək səviyyəyə çatdırıldı və bu gün oteldə Şuşa şəhərinə səfər edən qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb.

Şuşada ”Şuşa Otel-Konqres Mərkəzi” Kompleksi də inşa edildi. Karvansaray konseptini əsas götürərək, Şuşa şəhərinin mərkəzində, Zəfər yolunun üzərində yerləşəcək 5 ulduzlu ”Otel və Konfrans Mərkəzi” müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib. Mərkəz 2,8 hektar ərazini əhatə edir. Memarlıq adət-ənənələrini özündə əks etdirən xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq edilib. Həmçinin fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunub.






Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının - XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəyovun ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan hazırlanıb. Beş mərtəbədən və 150 nömrədən ibarət ”Otel və Konfrans Mərkəzi”ndə otaqlar, restoranlar, konfrans korpusları, daxili həyətlər var. Otel yerli və xarici qonaqların bütün ehtiyaclarını ödəmə potensialına sahibdir.

2021-ci ilin may ayında Şuşada ”Xarıbülbül” otelinin də açılışı oldu. Qarabağın simvolu olan Xarıbülbül gülünün şərəfinə adlandırılmış oteldə ümumilikdə 49 otaq var. Onların hamısı qonaqların qalması və rahat istirahət etməsi üçün bütün zəruri infrastrukturla təchiz olunub.

2023-cü ilin sonlarında Şuşada ”Yasəmən” oteli də istifadəyə verildi. Bu otel, XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş, Şuşa şəhərinin Köçərli küçəsində yerləşən üç yaşayış binasının işğal zamanı dağıdılaraq istifadəyə yararsız vəziyyətə salınmasından sonra ərsəyə gətirildi. Heydər Əliyev Fondu ərazidə layihələndirmə işləri apararaq, 2022-ci ilin may ayından etibarən həmin yaşayış binalarının təmir-bərpa işlərinə başladı. Bərpa zamanı binalarda təməlbərkitmə işləri görülüb, divarlarda daxili bərkitmə işləri aparılıb. Mərmi düşməsi nəticəsində binanın dağılmış hissələri yenidən tikilib. Sonradan inşa olunmuş əlavə tikililər isə söküIüb.




Fond tərəfindən bərpa edilən binalar hazırda otel kimi istifadəyə verilib. Autentik üslubda bərpa edilən ”Yasəmən” otelinin eksteryer və interyeri buraya gələnləri orta əsr Şuşasına qaytarır. Otel ”double”, ”twin” və ”junior” otaqların olduğu iki korpusdan, restoran və bir neçə terrasdan ibarətdir. Qonaqlar otelin həyətində dövrünün üslubuna uyğun salınan bağçada və terrasda dincələ, şəhərin mənzərəsini seyr edə bilərlər. Terrasdan Mehmandarovların malikanə kompleksinə və ümumi şəhərə gözəl mənzərə açılır. Otelin interyeri, otaqları xüsusi dizayn edilib. Buradakı hər bir element, əşya məhz bu dizayna uyğun seçilib. Bu da qonaqlarda nostalji hisslər yaradır.

Başqa bir otelin təməli də 2023-cü ilin avqustunda, Laçında qoyuldu. Laçının bərpası konsepsiyası çərçivəsində müasir səviyyədə inşa olunan mehmanxanada rayona səfərə gələnlərin rahatlığı üçün hər cür şərait yaradılıb. Mehmanxana kompleksi 100 otaqlı hotel binasından və 10 kottecdən, eləcə də kafe və restoranlardan, əyləncə və istirahət mərkəzlərindən ibarətdir. Hotelin açılışından sonra binada 500 yerlik çoxfunksiyalı tədbir və iclas zalları da qonaqların istifadəsinə veriləcək.

Eyni zamanda, mehmanxanada açıq və qapalı hovuz, SPA mərkəzi, boulinq və əyləncə, uşaq əyləncə zonası, qapalı idman zalı, yoqa otağı və açıq havada çoxfunksiyalı meydançalar yaradılıb. Bir sözlə, yüksək xidmətlərin göstəriləcəyi mehmanxana kompleksi müasir standartlar səviyyəsində inşa olunur.

Həmçinin, 2022-ci ildə Prezident İlham Əliyev Ağdamda yeni otelin təməlini qoydu. Hazırda tikintisi davam edən ”City Hotel Agdam” müasir səviyyədə inşa olunur, rayona səfər edəcək ziyarətçilərin rahatlığı üçün burada hər cür şərait yaradılır. 130 nömrədən ibarət beşmərtəbəli hotel binasında konfrans, iclas və banket zalları, fitnes və spa mərkəzləri, restoran və açıq terras yaradılıb.

Lakin görülən iş bu otellə yekunlaşmır. Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Bu məqsədlə ”Agdam City Hotel”dən başqa daha bir yüksək səviyyəli otel layihəsi icra olunur. ”Hilton Garden Inn” Ağdamın qonaq qəbulu potensialında əhəmiyyətli paya sahib olacaq.

İşğaldan azad olunduqdan sonra Zəngilanda salınan ilk yaşayış məskəni Ağalı kəndində də 2022-ci ildə yeni otelin tikintisinə başlandı. ”Ağıllı kənd”in ərazisində yerləşən otel 4 mərtəbəlidir. Tikinti işləri sürətlə davam edir. Otel Həkəri çayının sahilində, gözəl təbiət mənzərəsinin qovşağında yerləşir. Bir müddət öncə Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti publik hüquqi şəxs Crystal İnşaat ASC ilə 14.2 milyon manatlıq müqavilə də bağladı. Müqavilədə Zəngilan rayonu, Ağalı kəndində yerləşən otelin tam təchizatlı təmir və tamamlama işlərinin satın alınması nəzərdə tutulur. Müqavilənin dəyəri 14.192.628 AZN təşkil edir. 2022-ci ildə Kəlbəcər rayonunda ”İstisu” sanatoriyasının təməlqoyma mərasimi də həyata keçirildi.

34 hektar ərazidə salınan ”İstisu” İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfər qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottecin tikilməsi də planlaşdırılırdı. Qeyd edək ki, Kəlbəcərin İstisu kəndinin məşhur mineral suyu olan ”İstisu” bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya yaradılıb. İşğal dövründə yararsız hala salınan sanatoriya yeni simada tam bərpa olunacaq və əvvəlki şöhrəti qaytarılacaq. Hələ sovet dövründə illik 50 min turisti qarşılayıb, yola salmaq potensialı olan sanatoriyada indi bu potensial daha da artırılır.



Kəlbəcərin relyefi dünyanın ən çox tələb olunan istirahət məkanlarının, heyrətamiz kanatların inşasına, qış əyləncə növlərinin yaradılmasına imkan verir. Ekspertlər hesab edir ki, yaxın illərdə Kəlbəcər Qafqazın ən böyük turizm mərkəzi ünvanını ala bilər. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişafı ilə bağlı planlar olduqca genişdir. Yaxın 4-5 ildə daxili və xarici turistləri nəzərə alaraq, Qarabağın 1 milyon insanı qonaq qəbul edə biləcək potensiala sahib olacağı gözlənilir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
8 may
2024-cü il

# BOKT-lardan kredit götürənlər, DİQQƏTLİ OLUN!




### EKSPERT XƏBƏRDARLIQ ETDİ

"Banklardan daha tez kredit verə bilən BOKT-larda faiz nisbəti daha yüksək ola bilər. Bankların imkanları daha geniş olduğu üçün onlar da kreditlərin verilməsində müəyyən nüanslardan istifadə edib özlərinə müştəri cəlb edə bilirlər. BOKT-ların da bazarda olması müsbət haldır. Çünki bazarda imkanlar geniş olmalıdır ki, müştəri istədiyi məhsulu oradan ala bilsin. Düşünürəm ki, onların mövcud olmaması bir sıra çətinliklərlə yanaşı, bankların işini artıra bilər. Hesab edirəm ki, məhz bu baxımdan Mərkəzi Bank BOKT-ların fəaliyyətinə ciddi yanaşır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Rauf Qarayev deyib. Ekspert sözlərinə davam edərək qeyd edib ki, BOKT-lardan kredit götürən zaman müştərilər çıxılmaz vəziyyətdə qalmamaq üçün müqavilə şərtlərini diqqətlə oxumalıdırlar: "Müştəri əgər müqaviləni diqqətlə oxuyub, nüansları diqqətlə nəzərə alırsa, ödənişlərin qaytarılması zamanı çıxılmaz vəziyyətdə qalmaya bilər. Vətəndaşlar bəzən müqavilələrə diqqət etmirlər, çünki sənədləşmə prosesi onlara cansıxıcı olur. Amma vacib məqamlardan biri də odur ki, kredit borcu müqavilələri tərtib olunan zaman hüquqşünaslar cümlələr arasında müəyyən nüansları gizlədirlər. Müştərilər sonradan problem yaşamaq istəmirlərsə, mütləq kredit götürən zaman hüquqşünasın rəyini dinləməlidirlər. Əks halda itirən müştəri olur".

*Ləman Sərraf*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Ulduz futbolçu filmə çəkilir

Antidopinq qaydalarını pozduğu üçün dördillik müddətində futboldan uzaqlaşdırılan Pol Poqba filmə çəkilir. "Le Parisien"in yaydığı məlumatda deyilir ki, 31 yaşlı yarımmüdafiəçi ölkəsi Fransada lentə alınan "4 Zeros" filmində gənc futbolçuların məşqçi rolunu oynayır. Ekran işi 2025-ci ildə işıq üzü görəcək. Film PSJ ulduzu olmaq arzusunda olan gənc Kidanenin hekayəsindən bəhs edir.





## Mehmet Əli Ərbil ərəb turistlər üçün rəqs edib pul qazandı

Türkiyəli şoumen Mehmet Əli Ərbil bu dəfə restoranlardan birində lentə alınan görüntüləri ilə gündəmə gəlib. Türkiyə mediasının yazdığına görə, məşhur şoumen ərəb turistlərin qarşısında rəqs edib. Ərbil bunun müqabilində onlardan pul alıb. Turistlər onun uzatdığı papağın içinə pul qoyublar.

Qeyd edək ki, Ərbilin 41 yaş kiçik nişanlısı Gülseren Ceylan ilə dini nikah bağladığı bildirilir.

## Bakı sakinini bıçaqla hədələyib telefonunu əlindən aldılar

**Xətai rayonunda yerləşən dəmir yolu ərazisində bir nəfər şəxsə qarşı quldurluq əməli törədilməsi barədə polisə məlumat daxil olub. SİA DİN-ə istinadən xəbər verir ki, araşdırmalarla həmin şəxsin döyülməsi, kəsici alətlə xəsarət yetirilərək mobil telefonunun talanması, daha sonra telefonundakı tətbiq vasitəsilə 367 manat dəyərində alış-veriş edilməsi məlum olub.**



Ona xəstəxanada ilkin tibbi yardım göstərilib. Nəqliyyatda Baş Polis İdarəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə quldurluq əməlini törətməkdə şübhəli bilinən Nihad Abasov və Namiq Sadiqi müəyyən olunaraq saxlanılıb. Araşdırma aparılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3200**